QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 208 (5928) **9 noyabr** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# İlham Əliyev: “Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilib”

Səh 2



3

Bayrağımız - milli qürur mənbəyimiz



3

“Hər bir Azərbaycan vətəndaşı dövlətimizin bayrağı ilə fəxr edir, onu sevir və uca tutur”



7

Robert Koçaryan: “Ermənistan boş şüarlar və qeyri-müəyyən xarici oriyentirlərə məhkumdur”



# İlham Əliyev: “Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilib”

**Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilib, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir. Beləliklə, siyasi islahatların dərinləşməsi ölkəmizdə iqtisadi islahatlara daha da böyük təkan verir. Çünki sabitliyin mövcud olması ölkəmizə böyük həcmdə xarici sərmayənin gətirilməsinə də gözəl şərait yaradıb. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan dünya miqyasında aparıcı yerlərdədir.**

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 90-cı kitabında yer alan bu fikirləri dövlətimizin başçısı VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimindəki nitqində söyləyib.

Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin oktyabr-noyabr aylarını əhatə edir. Çoxcildliyin 90-cı kitabında Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri çərçivəsində İzmir şəhərində “Star” Neft Emalı zavodunun açılış mərasimində çıxışının mətni, Belarus Respublikasına rəsmi səfəri haqqında materiallar yer alıb. Nəşrdə Azərbaycan Prezidentinin İtaliya, Rusiya, ABŞ, İsveçrə, Mərakeş, Səudiyyə Ərəbistanı və digər dövlətlərin rəsmi nümayəndələrini, habelə VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün paytaxtımıza gəlmiş yüksək-vəzifəli şəxsləri qəbul etməsinə dair informasiyalar da verilib. Dövlətimizin başçısı bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.




Oxucu bu kitabda Azərbaycan Prezidentinin Lerik, Qax rayonlarına, Şəki, Sumqayıt şəhərlərinə səfərləri zamanı iqtisadi, sosial, mədəni infrastruktur obyektlərinin, eləcə də Ağdam rayonunda Muğam Mərkəzinin açılış mərasimlərində çıxışlarının, İmişlidə “ASAN həyat” Kompleksinin açılışı zamanı robot “Sofiya” ilə söhbətinin mətnləri ilə tanış ola bilər. Söhbət zamanı “ASAN xidmət”i Azərbaycanın milli brendi adlandıran Prezident deyib: “Bu gün Azərbaycanın təkcə təbii ehtiyatlarını və yaxud məhsullarını yox, eyni zamanda, intellektual məhsullarını ixrac etməsi bizi fərəhləndirir. Biz artıq belə xidməti yaratmaq istəyən bəzi ölkələrlə də işləyirik. Buna görə də “ASAN”ın təkcə Azərbaycanda yox, bütün dünyada parlaq gələcəyi vardır”.

Nəşrdə dövlətimizin başçısının Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyinə həsr olunmuş mərasiminin, V Bakı Beynəlxalq Teatr Konfransının, Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçılarına məktubları və digər məktublar toplanıb.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib. “Azərnəşr” tərəfindən buraxılan 90-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## İordaniya Azərbaycanla tərəfdaşlığa böyük önəm verir

*İordaniyanın yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın Xarici İşlər nazirinə təqdim edib*

Xarici İşlər naziri Elmar Məmmədyarov İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Səmi Abdulla Ğoşen ilə görüşüb.



XİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edilib.

Siyasi əlaqələrin mövcud inkişafının ikitərəfli iqtisadi münasibətlərin daha da irəlilədilməsinə təkan verəcəyini bildirən Elmar Məmmədyarov bu xüsusda, iqtisadiyyat, turizm, təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin və Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyətini xüsusi vurğulayıb.

Ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu deyən səfir Səmi Abdulla Ğoşe diplomatik fəaliyyəti dövründə İordaniya ilə Azərbaycan arasında əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Sonra səfir Səmi Abdulla Ğoşe etimadnaməsinin surətini Elmar Məmmədyarova təqdim edib. Nazir Elmar Məmmədyarov Səmi Abdulla Ğoşeni Azərbaycana səfir təyin olunması münasibətilə təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

## Nazir Reza Rəhmani: İran-Azərbaycan iqtisadi əlaqələri uğurla inkişaf edir

Cari ildə İran ilə Azərbaycan arasındakı ticarət dövriyyəsində artım müşahidə edilir ki, bu da iki qonşu və dost ölkənin əlaqələrinin uğurla inkişaf etdiyini deməyə əsas verir. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Sənaye, Mədən və Ticarət naziri Reza Rəhmani deyib. O bildirib ki, cari ilin ötən dövrü ərzində ticarət dövriyyəsi 74 faiz artıb. Lakin hər iki ölkənin iqtisadi potensialı ticarət dövriyyəsinin daha da artmasına imkan verir və bu imkandan istifadə etmək lazımdır.

Nazir qeyd edib ki, İran iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində heç bir məhdudiyyət görmür. Hazırda avtomobil istehsalı və əczaçılıq sahəsində birgə iqtisadi layihələr həyata keçirilir. Digər sahələrdə də birgə layihələrin həyata keçirilməsi mümkündür. Bu, həm ticarət dövriyyəsinin, həm də hər iki ölkənin ixrac potensialının artmasına şərait yaradar. Nəzərə çatdırılıb ki, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlardan biri kimi sərhədyanı rayonların qarşılıqlı əlaqələrini göstərmək olar.

## “Dünya Bankı Azərbaycanda həyata keçirilən islahatları yüksək qiymətləndirir”

“Azərbaycanda çox uğurlu sosial iqtisadi layihələr həyata keçirilir. Dünya Bankı bu islahatları yüksək qiymətləndirir.” Bu sözləri Dünya Bankının (DB) Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus jurnalistlərə müsahibəsində söyləyib. Onun sözlərinə görə, DB ilə Azərbaycan arasında olduqca uğurlu əməkdaşlıq var. DB bu əməkdaşlığı davam etdirməkdə maraqlıdır.

Bu yaxınlarda Azərbaycana etdiyi səfəri xatırladan S.Molineus Bakıda bir sıra yüksək səviyyəli şəxslərlə görüşlər keçirdiyini vurğulayıb. Bildirib ki, səfər çərçivəsində Bakıda keçirdiyi görüşlər olduqca uğurlu olub. Bu görüşlərdə Dünya Bankının Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasındakı rolu barədə müzakirələr aparılıb. Bununla yanaşı bankın Azərbaycanda dəstəkləyə biləcəyi bir sıra potensial intervensiya və layihələr də nəzərdən keçirilib. S.Molineus deyib: “Azərbaycanda müzakirə etdiyim layihələr məhkəmə islahatları, bərk tullantıların idarə olunması, təhsil və digər bir sıra sahələri əhatə edib. Bu sahələr Azərbaycanın davamlı iqtisadi inkişafı və ölkədə həyata keçirilən islahatlar üçün böyük əhəmiyyət kəsb edir”.

# Bayrağımız - milli qürur mənbəyimiz



***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook" səhifəsində "Bayrağımız - milli qürur mənbəyimiz" adlı status paylaşıb. AZƏRTAC xəbər verir ki, status Əhməd Cavadın "Azərbaycan bayrağına" şeirindən bir parça ilə başlayır:***

**Türküstan yelləri öpüb alnını**
**Söyləyir dərdini sana, bayrağım!**
**Üçrəngin əksini Quzğun dənizdən**
**Ərməğan yollasın yara, bayrağım!**

Statusda deyilir ki, görkəmli istiqlalçı şair Əhməd Cavadın bir zamanlar bu misralarla qürbətdən oxşayıb əzizlədiyi, doğma yarına - Azərbaycanına ərməğan kimi yollamaq istədiyi üçrəngli bayraq bu gün bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının qürur mənbəyinə, milli-mənəvi kimliyinə, millətin siyasi vizit kartına, ölkə vətəndaşlarının qeyrət və dəyanət simvoluna çevrilib...

Hər bir ölkə kimi, Azərbaycanın da tarixi və dövlətçilik ənənələri onun dövlət rəmzlərində və atributlarında öz əksini tapır. Müstəqil dövlət olaraq, onun dünyada öz məxsusi dövlət rəmzləri - bayrağı, gerbi, himni mövcuddur. Üçrəngli bayrağımız hazırda bizim əsas dövlətçilik rəmzimiz olaraq xalqın müstəqillik və suverenlik iradəsini, milli azadlıq və istiqlal arzularını özündə əks etdirir və Azərbaycanın müstəqilliyinin simvolu kimi çıxış edir.

Məlum olduğu kimi, üçrəngli dövlət bayrağımız ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə 1918-ci il noyabrın 9-da qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən sonra yeni qurulan hökumət bu bayraqdan imtina etmişdir. İkinci dəfə üçrəngli dövlət bayrağı 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən ilk sessiyasında Məclisin qərarı ilə bərpa olunmuş və Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. Həmin sessiyada Muxtar Respublika Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında "üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında" vəsatət qaldırmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və "üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi" haqqında qərar vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucu lideri, ulu öndər Heydər Əliyev bayrağımızı və digər dövlət rəmzlərimizi həmişə yüksək tutaraq onları xalqımızın, dövlətimizin müqəddəslik və əbədiliyinin, sarsılmazlıq və yenilməzliyinin simvolu kimi dəyərləndirmişdir. Ümummilli Lider söyləyirdi ki, "biz dövlət rəmzlərimizi - himnimizi, bayrağımızı, gerbimizi özümüz qədər sevməliyik, çünki onlar bizim Vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzləridir".

Milli dövlət və istiqlal rəmzlərimizə hədsiz sevgi nümayiş etdirən Prezident İlham Əliyev Ümummilli Liderin siyasi kursuna sadiq qalaraq dövlət suverenliyinin rəmzləri sayılan bayrağımızı, gerbimizi və himnimizi həmişə yüksək tutmuş, onların təbliği ilə bağlı xüsusi tədbirlər həyata keçirmişdir. 2007-ci il noyabrın 17-də Prezidentin Sərəncamı ilə Bakı şəhərində Dövlət Bayrağı Meydanı təsis edilmiş, 2009-cu il 17 noyabr tarixli Fərmanı ilə hər il noyabr ayının 9-u Azərbaycanda Milli Bayraq Günü kimi rəsmi bayram olaraq qeyd olunmağa başlanmışdır. Şəxsən ölkə başçısının və rəhbərlik etdiyi hökumətin dövlət rəmzlərinə, rəsmi atributlara, suverenlik göstəricilərinə bu cür ehtiramla yanaşması, əlbəttə, müvafiq olaraq bütün Azərbaycan cəmiyyətinin, xarici ölkələrdə yaşayan soydaşlarımızın da dövlətçilik simvollarına sevgisini daha da artırmış, hər bir azərbaycanlıda öz dövləti ilə bağlı qürur hissini yüksəltmiş, xalqla dövlət arasındakı vəhdəti daha da gücləndirmişdir. Xüsusən, 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimindəki nitqində Prezident İlham Əliyevin səsləndirdiyi "Bayrağımız bizim qürur mənbəyimizdir, bayrağımız bizim canımızdır və ürəyimizdir. Bu gün Azərbaycanın hər yerində dövlət bayrağı dalğalanır. Azərbaycanın ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız hələ də işğal altında olan torpaqlarda qaldırılacaq. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaq. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq" kimi duyğusal fikirlər hər bir azərbaycanlının və bütün soydaşlarımızın qəlbini riqqətə gətirmişdir.

Dövlət rəmzlərinə, xüsusən də bayrağımıza Azərbaycanda həmişə müqəddəs atribut kimi yanaşılmışdır. 2010-cu ildən başlayaraq Milli Bayraq Gününün ayrıca bayram kimi qeyd edilməsi ölkə başçısının və vətəndaşlarımızın öz dövlətçiliyinə və suverenliyinə, dövlət rəmzlərinə və müstəqillik simvollarına yüksək münasibətinin əyani təzahürüdür. İnsanlarımız Milli Bayraq Gününü millətimizin, xalqımızın azadlıq və istiqlal ideallarının, milli varlığının, bəşər sivilizasiyasında özünəməxsus milli-mənəvi dəyərlərə malik olmasının təcəssümü kimi dəyərləndirir, bayrağımızı ölkəmizin ərazi bütövlüyü və suverenliyinin, dünya azərbaycanlılarının mənəvi birliyinin, doğma Vətənlə vahidliyinin simvolu kimi qəbul edirlər.

## Əli Əhmədov: "Hər bir Azərbaycan vətəndaşı dövlətimizin bayrağı ilə fəxr edir, onu sevir və uca tutur"



Noyabr ayının 9-da Azərbaycanda bayraq günü qeyd edilir. Bayraq dövlətin rəmzi, müstəqilliyin atributudur. Bayraq, habelə xalqın qürur mənbəyi, onun özünütanıma və özünüifadə formasıdır. Hər bir Azərbaycan vətəndaşı dövlətimizin bayrağı ilə fəxr edir, onu sevir və uca tutur. İndi bayrağımız dünyanın müxtəlif yerlərində mötəbər məclislərdə, idman yarışlarında dalğalanır. Bu fikirlər Baş nazirin müavini, YAP -ın Sədr müavini -İcra katibi Əli Əhmədov Bayraq günü münasibətilə özünün facebook səhifəsindəki paylaşımda yer almışdır.

"Bayraq günü münasibətilə hər birinizi təbrik edir, xalqımıza əmin amanlıq, ölkəmizə daha böyük tərəqqi və yüksəliş arzulayıram."- Əli Əhmədov fikirlərini bu təbrik sözləri ilə yekunlaşdırmışdır.

## DSX-nin rəisi və Hərbi prokuror "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə səfər ediblər





Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev və Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru ədliyyə general-leytenantı Xanlar Vəliyev DSX-nin Sərhəd Qoşunlarının Ermənistan ilə dövlət sərhədinin mühafizə və müdafiəsini həyata keçirən "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə səfər ediblər.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində əlahiddə sərhəd diviziyasının struktur qurumlarının xidməti-döyüş fəaliyyəti yoxlanılıb, sərhəd döyüş məntəqələrində şəxsi heyətlə görüşülüb, xidməti və yaşayış şəraitinə baxış keçirilib.

Elçin Quliyev və Xanlar Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti, dövlət sərhədində zəruri sərhəd mühafizə və müdafiə infrastrukturunun yaradılması məqsədilə görülən işlərlə tanış olublar. Hərbi hissə və bölmələrin döyüş hazırlığının yüksəldilməsi, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, hərbi qulluqçular arasında hərbi intizamın möhkəmləndirilməsi, hüquqi maarifləndirmənin gücləndirilməsi istiqamətində zəruri tapşırıqlar verilib.

## DSX: Xidmətin vəzifəli şəxslərinə böhtan atan zabit barədə toplanılmış materiallar Hərbi Prokurorluğa göndərilib




Son günlər bəzi sosial mediada və "YouTube" kanalında Dövlət Sərhəd Xidmətinin (DSX) zabiti leytenant Əzizli Fərid Ceyhun oğlunun DSX-nin bir sıra vəzifəli şəxslərini hüquqa zidd əməllərdə ittiham etməsi barədə videoyazısı yayılıb.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, leytenant F.Əzizlinin ictimailəşdirdiyi məsələlərlə əlaqədar DSX-də araşdırma aparılıb, aidiyyəti hərbi qulluqçuların izahatları alınıb, guya qeyri-etik davranışa məruz qaldığı bildirilən vətəndaş dinlənilib. Araşdırma nəticəsində göstərilən hallar təsdiqini tapmayıb. Əsgərin valideyni ona qarşı hər hansı qeyri-etik davranışın, yaxud fiziki təsirin baş vermədiyini bildirib.

"Məlumat üçün bildiririk ki, leytenant F.Əzizli xidmətində yol verdiyi ciddi nöqsanlara görə bir neçə dəfə attestasiya qaydasında Silahlı Qüvvələrin ehtiyatına buraxılmağa təqdim olunub. Dövlət Sərhəd Xidmətinin rəhbərliyi tərəfindən gənc zabit olması nəzərə alınaraq, xidmətində dönüş yaratması üçün ona imkan verilib, lakin xidməti fəaliyyətində nöqsanlara yol verməyə davam edib.

Hazırda attestasiya qaydasında Silahlı Qüvvələrin ehtiyatına buraxılmağa təqdim olunan və bununla əlaqədar tibbi şəhadətləndirilməsi keçirilən leytenant F.Əzizlinin zabitlərə böhtan atmasında əsas məqsədi şantaj yolu ilə özünün xidmətdə saxlanılmasına nail olmaq, bu alınmadığı halda isə DSX-nin şəxsi heyəti sırasından kənarlaşdırıldıqdan sonra bu halı xidməti vəzifələrinin icrasında yol verdiyi nöqsanlarla deyil, guya "həqiqəti" yaydığına görə xidmətdən uzaqlaşdırılması ilə izah edə bilməkdir.

Həmin videoyazıda Dövlət Sərhəd Xidmətinin vəzifəli şəxslərinə böhtan atılması, yəni, onların şərəf və ləyaqətini ləkələyən və ya onları nüfuzdan salan məlumatların yalan olduğunu bilə-bilə yayılması ilə əlaqədar toplanılmış materiallar müvafiq hüquqi qiymətin verilməsi üçün rəsmi qaydada Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna göndərilib. Leytenant F.Əzizli xidməti vəzifəsindən kənarlaşdırılaraq sərəncama götürülüb", - deyə DSX mətbuat mərkəzinin məlumatında qeyd olunub.

# Asiya və Sakit Okean Ölkələrinin Xəbər Agentlikləri Təşkilatında sədrlik Yonhap agentliyinə keçib







***Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına (OANA) 2019-2022-ci illərdə sədrlik AZƏRTAC-dan Koreya Respublikasının Yonhap agentliyinə keçib. Bu barədə qərar təşkilatın noyabrın 8-də Seulda başa çatan Baş Assambleyasında qəbul edilib. Assambleyada Yonhap agentliyinin rəhbəri Ço Sanq Bo OANA-nın prezidenti vəzifəsinin icrasına başlayıb.***

Qeyd edək ki, AZƏRTAC OANA-ya 2016-2019-cu illərdə rəhbərlik edib. Qurumun XVI Baş Assambleyası həmin ilin noyabrında Bakıda təşkil olunub.

XVII Baş Assambleyada İcraiyyə Komitəsinin yeni tərkibi təsdiq edilib. AZƏRTAC yekdilliklə OANA-nın vitse-prezidenti seçilib, Monqolustanın Montsame agentliyi İcraiyyə Komitəsinə, Pakistanın PPİ agentliyi isə Texniki Komitəyə üzv qəbul olunub. OANA-nın İcraiyyə Komitəsinə hazırda 13 agentlik daxildir. Yonhap prezidentdir, AZƏRTAC, Rusiyanın TASS, Çinin Sinxua və Türkiyənin Anadolu agentlikləri vitse-prezidentdir, Avstraliyanın AAP, Malayziyanın Bernama, Bəhreynin BNA, İranın İRNA, Yaponiyanın Kyodo, Vyetnamın VNA, Livanın NNA, Monqolustanın Montsame agentlikləri isə üzvdür.

Növbəti XVIII Baş Assambleyanın 2022-ci ildə İranda keçirilməsi ilə bağlı İRNA-nın təklifi qəbul olunub. Assambleyada Fələstin Dövlətinin WAFA agentliyinə OANA-da müşahidəçi statusu verilib. Bundan əlavə, iştirakçılar təşkilatın Nizamnaməsinə təklif edilən dəyişiklikləri, OANA-nın atributlarını və Seul Bəyannaməsini təsdiqləyiblər.

OANA-nın baş katibi Vüqar Seyidov təşkilatın AZƏRTAC-ın sədrlik etdiyi 2016-2019-cu illəri əhatə edən fəaliyyəti barədə məlumat verib, maliyyə və texniki hesabatlarını diqqətə çatdırıb. Sədrlik dövründə AZƏRTAC təşkilatın veb-saytının təkmilləşdirilməsi, üzvlərin fəallığının artırılması istiqamətində bir sıra layihələr həyata keçirib. AZƏRTAC-ın təqdim etdiyi təkliflər paketi təşkilatın İcraiyyə Komitəsinin Livan, İran və Vyetnamda keçirilən iclaslarında geniş müzakirə olunub.

Vüqar Seyidov OANA-nın yeni seçilən baş katibi Donq Min Liyə uğurlar arzu edib. Baş Assambleyada, həmçinin 2019-cu il üçün OANA Mükəmməllik Mükafatının qalibləri olan Vyetnamın VNA və Çinin Sinxua agentliklərinə diplomlar və pul mükafatları təqdim edilib.

Tədbirdə çıxış edən İranın İRNA agentliyinin baş direktoru Seyed Ziya Haşemi, Yaponiyanın Kyodo agentliyinin prezidenti Toru Mizutani, Çinin Sinxua agentliyinin vitse-prezidenti Siyanq Liu 2016-2019-cu illərdə OANA-ya uğurlu rəhbərliyə görə AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanova təşəkkürlərini bildiriblər.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov OANA-nın yeni prezidenti, Yonhap agentliyinin rəhbəri Ço Sanq Boya uğurlar arzulayıb, təşkilatın növbəti dövrdə inkişafının dinamik olaraq davam edəcəyinə əminliyini bildirib.

Assambleya başa çatdıqdan sonra Yonhap-ın sədrliyi ilə OANA İcraiyyə Komitəsinin 46-cı iclası keçirilib. İclasda yeni katibliyin görəcəyi işlər, OANA-nın fəaliyyətinin inkişaf perspektivləri müzakirə olunub. Eyni zamanda, növbəti - 47-ci İcraiyyə Komitəsinin iclasının 2020-ci ilin yazında Montsame agentliyinin təşkilatçılığı ilə Monqolustanda keçirilməsi qərara alınıb. Bununla da OANA-nın XVII Baş Assambleyası başa çatıb.



# YAP İcra Katibliyində 9 Noyabr - Dövlət Bayrağı Gününə həsr olunmuş "Hər rəngində mən varam" filminin təqdimat mərasimi keçirilib



***Noyabrın 8-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində YAP Gənclər Birliyinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 9 Noyabr-Dövlət Bayrağı Gününə həsr olunmuş "Hər rəngində mən varam" adlı sənədli filmin təqdimat mərasimi keçirilib.***



Tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, bayraq millətin ruhunu özündə ehtiva etməklə yanaşı, dövlətin varlığını sübut edən rəmzdir. Onun sözlərinə görə, bir millətin dövləti varsa, bayrağı da var. Azərbaycan bayrağı da özünün rənglərindəki fəlsəfi mənası ilə xalqımızın düşüncəsini, ruhunu, xarakterini əks etdirir.

"Əlbəttə ki, bayraq millətin, dövlətin şərəf və ləyaqətinin göstəricisidir. Dövlət müstəqilliyinin ən böyük göstəricilərindən biri də onun bayrağıdır. Azərbaycanın dövlətçilik tarixinin bütün dövrlərində özünəməxsus yer tutan bayraq məfhumu xalqa və dövlətə ehtiram rəmzi kimi çıxış edib" -deyən, S.Orucovun sözlərinə görə, üçrəngli bayrağımız ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ucaldılıb. Amma Cümhuriyyət cəmi 23 ay yaşaya bildi.

YAP Gənclər Birliyinin sədri deyib ki, ötən əsrin sonlarında xalqımız yenidən müstəqilliyinə qovuşdu və üçrəngli bayrağımız da yenidən Dövlət bayrağı kimi təsbit edildi. Qeyd edib ki, 1990-cı il noyabr ayının 17-də Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı ilk dəfə olaraq salona gətirildi və Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı elan olundu. Sonra bu bayraq müstəqil dövlətimizin atrubutu kimi qəbul edildi.

S.Orucovun sözlərinə görə, Prezident İlham Əliyevin qərarı ilə Bakı şəhərində Dövlət Bayrağı Meydanı yaradılıb. Bu gün üçrəngli bayrağımız bütün beynəlxalq təşkilatların qarşısında dalğalanır və hər bir vətəndaş bununla qürur duyur. "Azərbaycan cəmiyyəti, xüsusilə gənclərimiz üçrəngli bayrağımızı göz bəbəyi kimi qorumalıdır. Çünki bayrağımız müstəqil dövlətimizin varlığının ifadəsidir"-deyə, YAP Gənclər Birliyinin sədri vurğulayıb.

Tədbirdə həmçinin Azərbaycan bayrağına həsr olunmuş şeirlər səsləndirilib.

Sonra "Hər rəngində mən varam" filmi nümayiş olunub. Qeyd edək ki, film Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə hazırlanıb.

# Uduzan erməni diplomatiyası: çaşqınlıqdan yaranan məntiqsiz tezislər

***Nikol Paşinyan və onun başçılıq etdiyi hökumətin bir sıra üzvləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ziddiyyətli bəyanatlarla çıxış edirlər. Sirr deyil ki, bu cür bəyanatların reallıqla heç bir əlaqəsi yoxdur və əslində Ermənistan rəhbərliyinin fikirləri bir-birini təkzib edir. Biri münaqişənin artıq həll olunduğundan dəm vurursa, digəri bu istiqamətdə danışıqların intensivləşdiyindən bəhs edir. Aydın görünür ki, işğalçı ölkənin münaqişənin həlli ilə bağlı konkret strategiyası yoxdur. Onlar ağıllarına nə gəldi deyirlər. Bu vəziyyətin yaranması səbəbləri az deyil. Təcrübə göstərir ki, hüquqi baxımdan Azərbaycan tam haqlıdır və bütün beynəlxalq təşkilatlar bunu sənədlərində təsbit edir. Bundan başqa, Yaxın Şərq təcrübəsi də sübut edir ki, münaqişə ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər.***

### Münaqişələrin həlli: ərazi bütövlüyü prinsipinin alternativsizliyi

Cənubi Qafqaz regionunda geosiyasi dinamikanın sürətlə yeniləşməsi fonunda ekspertlər Ermənistan-Azərbaycan münaqişəsinin həlli imkanlarına yenidən baxmağa çalışırlar. Onlar bu problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsindən başqa yolun olmadığına əmindirlər. Qlobal miqyasda cərəyan edən geosiyasi proseslərin də məntiqi məhz bu nəticəni təsdiqləyir. Yaxın Şərqdə Suriya və İraqın ərazi bütövlüyünün təmini böyük dövlətlərin şübhəsiz qəbul etdikləri prinsiplərin başında gəlir.

Nümunə kimi Rusiyanın Türkiyə ilə danışıqlarda Suriyanın ərazi bütövlüyünün bərpa edilməsi məsələsini daim qabartmasını göstərmək olar. Moskva Suriyada kürd dövlətinin yaradılmasının mümkün olmadığını açıq ifadə edir. Bununla yanaşı, İran da Suriyanın ərazi bütövlüyü məsələsinə böyük əhəmiyyət verir. Təbii ki, Türkiyə bu prinsipi tam qəbul edir və fəaliyyəti ilə onun reallaşmasına böyük töhfə verir. Hazırda Suriyanın ərazi bütövlüyünün bərpa edilməsində şəhidlər verən yeganə dövlət Türkiyədir.

Bunun fonunda terror qrupları və onların havadarları Türkiyəyə qarşı qarayaxma kampaniyası aparmağa çalışırlar. Onlar türk ordusunun kimyəvi silahlar tətbiq etdiyi fikrini ortaya atdılar. Paralel olaraq hərbi əməliyyat zamanı dinc əhaliyə, tarixi abidələrə zərər dəydiyini dedilər. Lakin BMT-nin uyğun komissiyaları hər iki iddianı rədd etdi və göstərdi ki, bunlar iftiradır. Türkiyə hərbi əməliyyatlar zamanı son dərəcə düzgün davranıb və dinc əhaliyə zərrə qədər də zərər dəyməyib.

Bunların fonunda Xarici İşlər naziri Mövlud Çavuşoğlu BMT-nin Türkiyədəki tədbirində bəyan etdi ki, dünyadakı bütün münaqişələr sülh yolu ilə beynəlxalq hüquq çərçivəsində həll olunmalıdır. Yəni məsələ yalnız Suriya ilə məhdudlaşmamalıdır. Fikirlərini inkişaf etdirən M.Çavuşoğlu Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fəallığını daha da artıracağını ifadə etdi. Deməli, Ermənistan-Azərbaycan münaqişəsinin ərazi bütövlüyü prinsipi ilə həll edilməsi şansı getdikcə daha da artır.

Rusiya Suriyada bir kriteriyanı, Cənubi Qafqazda başqasını həyata keçirə bilməz. Suriyada kürd dövlətinin yaradılmasına izin verilmədiyi kimi, Azərbaycanda da erməni dövlətinin yaradılmasına izin verilə bilməz. Həm də ermənilərin buna haqları yoxdur. Onda Azərbaycanın ərazi bütövlüyünün təmini prinsipini Rusiyanın tam olaraq qəbul etdiyi nəticəsini çıxara bilərik. Türkiyənin məsələyə münasibəti çoxdan aydındır. Ankara münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə həll oluna biləcəyini ifadə etməkdədir. İran da fərqli mövqe tuta bilməz. Çünki Suriyanın ərazi bütövlüyünü müdafiə edən Tehran qonşusu Azərbaycana qarşı fərqli düşünə bilməz. Baxmayaraq ki, İran rəhbərliyi Ermənistanla əməkdaşlığa daim üstünlük verir.

Bütün bunlar erməni diplomatiyasını çox çətin vəziyyətə salıb. Rəsmi İrəvan anlayır ki, bütün kartları əldən gedib. Azərbaycan intensiv fəaliyyəti ilə həqiqəti dünyaya çatdırıb və beynəlxalq hüquq da Bakının tərəfindədir. Başqa münaqişələrin həlli təcrübəsi də bir məqamı təsdiq edir: münaqişə ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salına bilər. Ermənistan hakimiyyətinin çaşqınlığını son zamanlar münaqişə ilə bağlı məntiqsiz danışması da təsdiq edir.

Ermənistanın müdafiə naziri deyib ki, Dağlıq Qarabağ münaqişəsi artıq həll olunub. Yəni Ermənistan işğal etdiyi Azərbaycan ərazilərindən çıxmayacaq və nəticədə İrəvanın istədiyi olacaq. Bu sözlər faktiki olaraq Nikol Paşinyanın bir müddət öncə dediyi "Qarabağ Ermənistandır və nöqtə" cəfəngiyatı ilə eyni statusdadır. Konkret desək, rəsmi İrəvan növbəti dəfə öz havadarlarını zərbə altında qoyur.




Haqlı Azərbaycan: dünyanın qəbul etdiyi həqiqət

Məsələ ondan ibarətdir ki, baş nazirdən sonra müdafiə naziri də danışıqlar prosesini süni və səmərəsiz proses kimi təqdim edir. Belə çıxır ki, ATƏT-in Minsk qrupu və onun həmsədrləri oyuncaqdırlar. Onlar gözə kül üfürmək üçün mövcuddurlar. Başqa sözlə, Ermənistanın havadarları əslində Azərbaycanın başını qatırlar ki, imkan olanda, işğal edilmiş əraziləri Ermənistana qatsınlar.

Həmsədrlər isə başqa şey danışırlar. Onlar münaqişəni həll etmənin Minsk qrupundan başqa formatının olmadığını deyirlər. Bundan başqa, belə çıxır ki, ATƏT yalançı bir siyasi oyunun iştirakçısıdır. Çünki rəsmi İrəvan əmindir ki, Dağlıq Qarabağ məsələsi həll olunub və buna görə də ATƏT problemi həll etməyin imitasiyası ilə məşğuldur.

Digər tərəfdən, baş nazir N.Paşinyan öz qulbeçəsinin dediyini inkar edən fikir söyləyib. O, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli istiqamətindəki dinamikadan razı qaldığını bildirib. Hesab edir ki, bu aspektdə proseslər daha da intensivləşib. Ancaq bunun nələrdə öz ifadəsini tapdığını deməyib. İndi kim düzünü deyir - baş nazirmi, yoxsa müdafiə nazirimi?

Bizcə, onların hər ikisi yalan danışır. Lakin məsələnin maraqlı tərəfi odur ki, baş nazir faktiki olaraq müdafiə nazirinin yalan danışdığını ifadə edib. N.Paşinyan, görünür, özünün əvvəlki səhvini təkrar etməkdən ehtiyatlanır və bilir ki, havadarları dərisini soya bilərlər. Ən azından hakimiyyəti itirə bilər.

Daha geniş aspektdə açıq görünür ki, rəsmi İrəvanın münaqişənin həlli ilə bağlı konkret strategiyası yoxdur. Kimin ağlına nə gəlir və radikal düşüncəyə necə sərf edir, ondan danışır. Gah danışıqları vəsf edir, gah da "məsələ bitib", deyirlər. Əslində isə vəziyyət kifayət qədər sürətlə ermənilərin əleyhinə dəyişməkdədir. Bu, bütün səviyyələrdə aydın hiss edilir. Belə ki, Qoşulmama Hərəkatına daxil olan 120 dövlət Ermənistanı təcavüzkar adlandırdı və belə qəbul etdi. Bu, BMT, Aİ, İƏT, Türk Şurası və digər qurumların qəbul etdiyi sənədlərlə bərabər ciddi əhəmiyyəti olan hadisədir. Çünki faktiki olaraq bütün dünya dövlətlərinin Azərbaycanın haqlı olduğunu hüquqi olaraq qəbul etməsinin təsdiqidir. Bu da Azərbaycanın tədbir görməsi üçün daha geniş imkanların meydana gəldiyini göstərir. İrəvan bunu anlayır və təşvişdədir.

Digər tərəfdən, real fəaliyyət sahəsində Suriyanın timsalında gedən proseslər göstərdi ki, münaqişənin Azərbaycanın ərazi bütövlüyünün təminindən başqa variantı yoxdur. Bu faktın məntiqi nəticələrindən biri Türkiyənin diplomatik müstəvidə daha güclü təzyiqlə Ermənistanın işğal etdiyi ərazilərdən çəkilməsinə çalışması olacaq. Ankaranın və Bakının bu istiqamətdə qarşısında dayanacaq güc ola bilməz.

Bunlarla yanaşı, Cənubi Qafqazda sabitliyin təmini Rusiyanın marağındadır. Burada proseslərin qeyri-müəyyənliyə yuvarlanması Moskva üçün əlavə problemlər yarada bilər. Onun artıq ilk siqnalları alınır. Belə ki, Ermənistanda bir anti-Rusiya kampaniyası başlanıb. Onu aparanlar müxtəlif hesabatlar və məruzələrlə Rusiya hərbi kontingentinin Ermənistanda hansı çətinliklər yaratdığı ilə bağlı fikir formalaşdırmağa çalışırlar. Bu, Rusiyanın müdafiə naziri Sergey Şoyqunun İrəvana səfəri zamanı aşkar hiss olunub. Kreml bunlara reaksiya verərək iki ölkə arasında münasibətləri kimlərin korlamağa çalışdığı sualını verir. Moskva açıq bəyan edir ki, aranı Ermənistanda Qərbin sifarişini yerinə yetirən sosial şəbəkə qatır. Deməli, Moskva regionda geosiyasi vəziyyətin sabitlikdən çıxarıla biləcəyindən ehtiyat edir və onun qarşısını almağa çalışır.

Yuxarıda vurğulanan məqamlar onu göstərir ki, Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həlli yeni mərhələyə qədəm qoymaqdadır. Obrazlı desək, artıq, "cidanı çuvalda gizlətmək" mümkün deyildir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsə, Cənubi Qafqazda çox riskli vəziyyət meydana gələcək. Burada terrora təkan verən proseslər özünü göstərə bilər ki, onun qarşısını almaq xeyli çətin olar. Həmin terror dalğasının Rusiya ərazisinə sıçraya biləcəyinə də şübhə yoxdur. Vəziyyətin bu yöndə inkişafında Ermənistan maraqlıdır. Çünki bütün hüquqi şərtlər, qaydalar və beynəlxalq hüquq Azərbaycanın haqlı olduğunu göstərir. Ermənistan ancaq aranı qatmaqla, suyu bulandırmaqla, qanunsuz addımlarla prosesi ləngidə bilər. Deməli, yeni səviyyədə mübarizə başlayır.

**Newtimes.az**

# Leyla xan Xoyski: "İlk beş üçrəngli Azərbaycan bayrağından biri bizim evimizdə idi"

*Uşaq idim, babamgilə gedəndə divarda üçrəngli, kənarları qızılı pullarla işlənmiş parça gördüm. Rəngləri o qədər gözəl idi ki... Çox xoşuma gəldi. Evin ən gözəl yerində asılmışdı. Nə olduğunu soruşanda bunun bizim bayrağımız olduğunu dedilər. İlk dəfə bayrağımızı onda gördüm. Bilirsiniz, həmin bayraq bizim üçün çox dəyərli, müqəddəs və toxunulmaz idi. Bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Xalq Cümhuriyyətinin ilk Baş Naziri, Daxili İşlər, Hərbiyə, Ədliyyə və Xarici İşlər naziri olmuş Fətəli xan Xoyskinin qardaşı, general Hüseynqulu xan Xoyskinin nəvəsi Leyla xan Xoyski-Keykurun bildirib.*



Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fətəli xan Xoyski Adil xan Ziyadxanı fars dilini mükəmməl bildiyi üçün İrana səfir təyin etmişdi. Bu haqda danışan müsahibimiz deyir: "Adil xan Ziyadxan digər hökumət üzvləri ilə birlikdə dizayn edib hazırladıqları ilk beş üçrəngli Azərbaycan bayrağından birini özü ilə İrana aparmışdı. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra isə həmin bayraq evimizə gətirildi. Təəssüf ki, evdən köçəndə həmin bayraq müəmmalı şəkildə yox oldu. Ya itdi, ya da oğurlandı. Sonralar ailəmizin üzvləri yağlı boya ilə bayrağımızın şəklini çəkdirdilər. O rəsm evimizin ən əziz əşyası idi. Biz bayraq eşqi, bayraq sevgisi ilə böyümüşük. İndi Azərbaycanın üçrəngli bayrağı hər yerdə dalğalanır. Bax, mənim üçün ən böyük qürur, xoşbəxtlik budur".

Xatirələrini bizimlə bölüşən Leyla xanım deyir: "Cümhuriyyət 1920-ci ildə süquta uğradıqdan sonra bizim ailəmiz də Türkiyəyə köçmək məcburiyyətində qaldı. Ailəmiz 70 il vətən həsrəti çəkdi, Azərbaycana qayıdacaqları günü gözlədi. Onlar Türkiyəyə gəldikləri il geri dönəcəklərini düşünərək hətta qış üçün odun tədarük etməmişdilər. Babam, Fətəli xan Xoyskinin böyük qardaşı general Hüseynqulu xan Xoyski Azərbaycan Xalq Cümhuriyyətinin ordu zabiti, Gəncə alayında briqada komandiri, Gəncə üsyanının başçısı olmuş Cahangir bəy Kazımbəyli ilə birlikdə atla sərhədi keçərək Türkiyəyə gəlmişdi. Anamın ailəsi isə 1933-1935-ci illərdə Gürcüstandan dəniz yolu ilə gələrək Türkiyədə yerləşmişdi. Şirinbəyim nənəm (Hüseynqulu xan Xoyskinin həyat yoldaşı) Gəncədən qaçmaqda onlara qulluqçularının kömək etdiyini deyirdi. Qaçarkən nənəm yanında qızıl-zinət əşyalarını götürmüşdü. Bu qızıllarla onlar 12 il Türkiyədə işləmədən yaşaya bilmişdilər".

Hər gün evlərinin azərbaycanlı qonaqlarla dolu olduğunu xatırlayan Leyla xanım deyir: "Ana babam Adil xan Ziyadxan universitetdə rus dilindən dərs deyirdi. Ata babam Hüseynqulu xan isə çox vaxt evdə olurdu. O, daha çox siyasətlə məşğul olur, Azərbaycana qayıtmağın yollarını fikirləşirdi. Mən babamda olan Vətən sevgisini başqa heç kimdə görmədim. Bəzən saatlarla uşaq kimi ağlayırdı, vətəni görmədən öləcəyindən qorxurdu. Azərbaycandan heç bir xəbər ala bilmirdilər və bu onları çox incidirdi. Həmin illəri çox yaxşı xatırlayıram, onların çəkdiyi əzabları sözlə ifadə etmək çətindir.

Hər il mayın 28-də evimizdə bayram abu-havası yaşanırdı: Azərbaycan musiqiləri səsləndirilir, rəqsləri ifa edilirdi. Həmin gün buradakı bütün azərbaycanlılar bir yerə yığışırdılar. Onların arasında çox gözəl birlik var idi. 28 May - Respublika Günü müxtəlif məkanlarda qeyd edilirdi. Azərbaycanın yenidən müstəqilliyinə qovuşduğu günü yalnız anam görə bildi. 1994-cü ildə Azərbaycandan bir qrup jurnalist bizə gəlmişdi, anam sevincindən hönkürhönkür ağlayırdı".

1930-cu ildə anadan olan Leyla xan Xoyskinin uşaqlıq illəri II Dünya müharibəsinə təsadüf edib: "O illərin çox ağır olmasına baxmayaraq, biz çox gözəl təhsil aldıq. Mən riyaziyyat müəllimi, qardaşım İbrahim isə memar oldu. 30 yaşımda köklü ailələrdən olan Nağı Şeyxzamanlının oğlu Yavuz bəylə ailə həyatı qurdum. O, mənim uşaqlıq dostum idi. Nə mənim, nə də qardaşımın övladı olmadı. Lakin buna görə təəssüflənmirəm. Çünki ətrafımda hər zaman gözəl insanlar olub. Ona görə də heç vaxt özümü tənha hiss etməmişəm. Tələbələrim, məktəb yoldaşlarım indi də məni tək qoymurlar. Azərbaycandan gələn qonaqlarım da çoxdur".

Leyla xanım deyir ki, onda təyyarə qorxusu var, indiyədək təyyarəyə minməyib. Bu səbəbdən də Azərbaycana gedə bilməyib: "Qardaşım getdi, Vətəndən torpaq gətirdi, ata-anamın qəbirlərinə səpdik. Azərbaycanı çox sevirəm, ora mənim bir parçamdır. Ancaq onların həsrəti başqa idi. Mənə Bakının, Gəncənin şəkillərini göstəriblər. Hündür binalar, işıqlı və təmiz küçələr, parklar... Bir sözlə, heyran qaldım. Mən azərbaycanlılara heyranam. Rəsmin, sənətin, musiqinin bu qədər gözəl olduğu ikinci ölkə yoxdur. Musiqini çox sevirəm, bu sevgi mənə anamdan keçib. Anamın royalı var idi, xalalarım da pianinoda gözəl ifa edirdilər. Əvvəllər pianinoda klassik musiqiləri çalardım, ancaq indi sadə və həzin musiqilər ifa edirəm. Azərbaycan xalq mahnılarını çox sevirəm. Azərbaycanlı olduğum üçün qürur duyuram".

Prezident İlham Əliyevin Sərəncamına əsasən, bu ilin sentyabr ayında Cümhuriyyət liderlərinin Türkiyədə yaşayan varislərinə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" medalları verilib. Xan Xoyski və Şeyxzamanlı ailələri adından medal Leyla xanıma təqdim edilib. Göstərdiyi böyük diqqət və qayğı üçün Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən Leyla xan Xoyski deyir: "Mən ailəm adına bu medala layiq görüldüyüm üçün çox qürurluyam. Tək arzum Azərbaycanın müstəqilliyinin daimi olmasıdır".

# "Yeni Müsavat"ın 30 illik yubiley tədbiri keçirilib

Dünən "Yeni Müsavat" Media Qrupunun 30 illik yubiley tədbiri keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə ölkənin tanınmış ictimaiyyət nümayəndələri, dövlət rəsmiləri, xarici ölkələrin Azərbaycandakı səfirləri, millət vəkilləri, vətəndaş cəmiyyəti institutlarının rəhbərləri, ekspertlər, eləcə də media mənsubları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan "Yeni Müsavat" Media Qrupunun rəhbəri, baş redaktor Rauf Arifoğlu qonaqları salamlayaraq, bu özəl tarixi günə qatıldıqları üçün hər bir iştirakçıya təşəkkürünü bildirib. O, qəzetin yarandığı dövrü, keçdiyi tarixi yolu tədbir iştirakçılarının diqqətinə çatdırıb: "Bu qəzet milli azadlıq hərəkatından doğan təsislərdən biridir. 30 il öncə xalqımız azadlığı və torpaqlarının bütövlüyü uğrunda mübarizəyə qalxmışdı. Biz də bu mübarizənin, meydan və səngər hərəkatının iştirakçılarından, könüllülərindən idik. Azərbaycan xalqı möhtəşəm bir özünütəşkil prosesi yaşayırdı: hər şey meydanlarda, ayaqda və dərhal həll olur, qurulurdu. Azadlıq Meydanında, xalq hərəkatının gedişində Azərbaycan Xalq Cəbhəsi quruldu, elə buradaca özünü müdafiə könüllü dəstələri yarandı və milli mətbuatın ilk qaranquşları da Meydan hərəkatında ortaya çıxdı. "Yeni Müsavat" qəzeti də Meydan hərəkatından, xalqın tələblərindən doğdu. Biz kommunizmə qarşı mübarizədə Müsavat adında təşkilat qurduq və bu təşkilatın qəzetini yaratmaq da mənim üzərimə düşdü. 30 il sonra məmnunluqla bildirirəm ki, bu işin öhdəsindən gələ bilmişəm və bu gün "Yeni Müsavat" milli azadlıq hərəkatının yaşayan azsaylı və ən uğurlu layihələrindən biri kimi zamanın, dövrün təlatümlərinə dözərək fəaliyyətini davam etdirir. Azərbaycanın son 30 ilini düşünün. Sovet hakimiyyətinin yıxılması, müstəqil Azərbaycan dövlətinin qurulması, erməni iddiaları nəticəsində Qarabağ və vətən müharibəsinin başlaması, illərlə davam etməsi, könüllü batalyonların, daha sonra milli ordunun qurulması, torpaqlarımızın işğalı, Xocalı soyqırımı, iqtidarların ard-arda dəyişməsi, siyasi təlatümlər, həbsxanalar, düşmənçiliklər, dostluqlar... Biz bunların hamısını Azərbaycanla bərabər həm yaşadıq, həm də yazdıq, tarixləşdirdik... Biz bu 30 ili özətləyəcək 30 dəqiqlik sənədli bir film çəkdik. İnşallah ki, bu cür layihələrimiz davamlı olacaq və biz öz hekayəmizi tarixə və oxucuya anlatmaqda davam edəcəyik".




Daha sonra media qrupun 30 illik fəaliyyətinə həsr olunmuş video çarx təqdim olunub.

Filmin təqdimatından sonra əməyi keçən " Yeni Müsavat" ın əməkdaşları baş redaktor tərəfindən mükafatlandırılıblar.

Daha sonra çıxış edən Prezident Administrasiyasının ictimai siyasi məsələlər şöbəsinin müdir müavini Vüqar Əliyev bildirib ki, "Yeni Müsavat" Media Qrupu öz üzərinə düşən missiyanı yerinə yetirən az mətbu orqanlarından biridir. O söyləyib ki, "Yeni Müsavat" milli jurnalistikamızın təməl prinsiplərinin rəhbər tutaraq insanları məlumatlandırma, cəmiyyətdə gedən inkişaf proseslərini olduğu kimi işıqlandırmaq, cəmiyyəti narahat edən problemləri və onların çıxış yollarını göstərən bir mətbuat orqanı kimi uğurla fəaliyyət göstərir: "Media orqanı cəmiyyətdə nüfuz sahibi olaqla yanaşı, mətbua orqanları arasında özünə məxsus yeri var. "Yeni Müsavat" mətbuat orqanları arasında öz yerini liderlər sırasında möhkəmləndirib. Bu uğurlar əlbəttə ki, əməkdaşların peşəkarlığı, media qurumun idarəçiliyinin düzgün aparılması, rəhbərliyin fədakarlığı, qəzetin inkişafına qurban verməsidir".

Ölkəmizdə dövlət tərəfindən mətbuata göstərilən diqqət və qayğıdan söz açan V. Əliyev qeyd edib ki, ölkədə söz və mətbuat azadlığı olmaqla yanaşı, dövlət tərəfindən mətbuata qayğı və dəstək göstərilir: "Belə ki, bu gün jurnalistlər, eləcə də mətbuat orqanları Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondundan ( KİVDF) bəhrələnir, xidməti olan qələm əhli dövlət mükafatlarına layiq görülür, jurnalistlərin mənzil və məişə şəraiti yaxşılaşdırılır. "Yeni Müsavat" da bu dəstəkdən yararlanır, bu qəzetin inkişafında gələcək uğurların formalaşmasında dövlətin öz dəstəyi var".

PA rəsmisi əlavə edib ki, əgər bir qəzet 30 il fəaliyyət göstərərək özünü təsdiq edirsə, onun bundan sonra da yaşamağa, inkişaf etməyə, xalqa xidmət etməyə haqqı var: "Mən bundan sonra da onlara inamla addımlamağı arzu edirəm. Düzdür, bu çox çətindir, amma şərəflidir. Mən bu şərəfli işdə sizə uğurlar arzu edirəm".

Tədbirin davamında Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov Şuranın son keçirilən iclasının "Yeni Müsavat"ın 30 illiyinə həsr olunduğunu dilə gətirib. O deyib ki, "Yeni Müsavat" medianın səlnaməsi, Azərbaycan mediasında özünəməxsus yer tutan brenddir.

Media Qurumunun uğurlu fəaliyyətindən bəhs edən M.Ş sədri mətbu orqanına gələcək fəaliyyətində uğurlar arzu edib. Yubiley tədbiri çıxışlarla davam edib. Məlumat üçün qeyd edək ki, "Yeni Müsavat" qəzeti "Yeni Müsavat" Media Qrupuna aid print media orqanıdır. Bu qəzetin ilk sayı 10 noyabr 1989-cu ildə dərc olunub.

"Səs" qəzetinin kollektivi də "Yeni Müsavat"ın əməkdaşlarını qəzetin 30 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, onlara yeni-yeni yaradıcılıq uğurları arzulayır!

# TƏPH kəməri ətrafındakı vəziyyət Türkmənistanı Aİ-yə meyilləndirir



***Türkmənistan prezidenti Q.Berdıməhəmmədov Bakıda "Qoşulmama Hərəkatı"nın XVIII sammitində iştirak etdi və Cənab Prezident İlham Əliyevlə görüşüb, ikitərəfli münasibətləri müzakirə etdi. SİA xəbər verir ki, bunu Siyasi İnnovasiyalar və Texnologiyalar Mərkəzinin sədri, politoloq Mübariz Əhmədoğlu dünən "Qarabağ saatı" mövzusunda keçirdiyi növbəti mətbuat konfransında deyib.***

O, diqqətə çatdırıb ki, Türkmənistan prezidentinin Bakıya səfəri ərəfəsində Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Türkmənistan qazının Azərbaycan vasitəsilə Avropaya tranziti məsələsi ilə maraqlanacaqlarını açıqladılar.

"Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan qaz kəməri ətrafında vəziyyət yenidən kəskinləşdi. Proseslər bir neçə istiqamətdən aşkarlandığı üçün ictimaiyyətin xəbəri olub:

ı. Hindistan TƏPH kəməri ilə türkmən qazını 350 dollara almaq istəmir, 140 dollara almaq istəyir. Hindistanın 350 dollara qazı almaq istəməməsi izah olunan məsələdir. Amma 140 dollar qiymət qoyması isə artıq siyasi parametrlərin rolunu göstərir. Hindistan İran qazını almaq niyyətindədir.

ıı. Pakistan da qazın qiymətini aşağı salmaq istəyir. Eyni zamanda Pakistanda məmurlardan biri TƏPH-ə ayrılan 255 milyon dollar vəsaiti oğurlayıb. Pakistanda yaranan çətinlikləri və Hindistanın mövqeyini İran parametri ilə əlaqələndirmək mümkündür.

Pakistanın Baş naziri İmran Xan Səudiyyə Ərəbistanı və İran arasında vasitəçilik missiyası ilə Tehranda olarkən İranın Ali rəhbəri Pakistanın Baş nazirinə vasitəçilikdən daha çox İran-Pakistan qaz kəmərinin çəkilməsi ilə məşğul olmağı tövsiyə etdi. Pakistanın ABŞ-la münasibətlərinin zəiflədiyi fonda Pakistan üçün bu təklif daha cəlbedici görünüb. Ona görə Hindistanda düşünürlər ki, İran qazı Türkmənistan qazından ucuz olacaq: Pakistana İran qazı gedəcəksə, oradan Hindistana da gedə bilər və yaxud Hindistan özü müstəqil şəkildə İrandan qaz ala bilər. Qeyd: TƏPH layihəsi reallaşdırılarkən bizim mərkəz belə vəziyyəti əvvəlcədən proqnozlaşdırmışdı.

ııı. Əfqanıstanda xüsusi olaraq TƏPH qaz kəmərinin müdafiəçisi üçün hərbi bölmə yaratdılar.

ıv. Əfqanıstanda TƏPH-in tikintisi üçün pul çatışmır. Bu rəqəm təxminən 12 milyard dollardır və Əfqanıstanın İqtisadiyyat naziri Mustafa Mastur bu məbləğin Əfqanıstanın imkanından kənarda olduğunu bildirdi.

v. Əfqanıstan və Pakistan hərbçiləri, rəsmiləri Türkmənistan Xarici İşlər Nazirliyində TƏPH marşrutunun tikintisi, müdafiəsi, elektrik və optik rabitə kanallarının tikilməsi, mühafizəsi məsələlərini müzakirə etdilər.

vı. Türkmənistan prezidenti Baş nazirin müavini, neft-qaz sahəsinin kuratoru Murat Meredova töhmət elan etdi. O, TƏPH-lə bağlı vəziyyəti yaxşı nəzarət altında saxlaya bilməyib, ölkə rəhbərliyinə vaxtında məlumat verməyib.

Prezident Q.Berdıməhəmmədov imperator Naruxitonun intronizasiyası ilə əlaqədar Yaponiyada oldu. Bu ölkənin Baş naziri ilə görüşdü, 4 müqavilə imzalandı. Q.Berdıməhəmmədov yapon biznesmenləri ilə səhər yeməyi yedi, Xirosaki universitetinin fəxri doktoru rütbəsi ilə mükafatlandırıldı.

Aşqabadda MDB sammiti keçirildi. MDB üzv ölkələrin prezidentləri sammitdə iştirakla yanaşı, müxtəlif ikitərəfli görüşlər keçirdilər. Prezident Q.Berdıməhəmmədov RF prezidenti V.Putinlə görüşdü, informasiya təhlükəsizliyi sahəsində milli tədbirləri möhkəmləndirmək məsələlərini müzakirə etdilər və bu sahədə də müqavilə imzalandı. Bu, Q.Berdıməhəmmədovun orijinal görünməsi kateqoriyasına aid edilə bilər.

Türkmənbaşı ilə Mahaçqala (Dağıstan, RF) arasında bərə əlaqəsi açmaq razılaşdırılıb", deyə politoloq bildirib.

Siyasi İnnovasiyalar və Texnologiyalar Mərkəzinin sədri həmçinin Aşqabadda MDB üzv ölkələrinin sammiti çərçivəsində Q.Berdıməhəmmədovun digər prezidentlərlə yanaşı, Özbəkistan prezidenti ilə də görüşünə toxunub.

"İki ölkə prezidenti İran istiqamətində yeni tranzit koridorunun formalaşdırılması məsələlərini müzakirə etdilər.

Türkmənistan aviakompaniyalarına Aİ ölkələrinin üzərindən uçmağa icazə verildi. Çinin Türkmənistandakı səfiri bu vaxtadək Türkmənistandan 250 milyard kub metr qaz nəql etdiklərini bildirdi. Türkmənistan prezidenti Daxili İşlər nazirini vəzifədən azad etdi, bütün təltiflərindən məhrum etdi, nazir həbs olundu", deyən M.Əhmədoğlu bir çox məqamlara da aydınlıq gətirib.

***İnam Hacıyev***

# Nikol Paşinyan etirazçılara qarşı çıxıb



Mən sizin tələbləriniz və qiymətləndirmələrinizlə razı deyiləm. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu Nikol Paşinyan dünən Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin binası qarşısında Araik Arutyunyanın istefası tələbi ilə gecəni burada keçirən Daşnaktsutyun partiyasının gənclər qanadının nümayəndələrinə deyib.

Məlumatda qeyd olunur ki, Ermənistanın baş naziri Nikol Paşinyan təhsil, elm, mədəniyyət və idman naziri Araik Arutyunyanın istefası tələbi ilə razılaşmadığını gizlətməyib. Nikol Paşinyan tələbələrdən hansı konkret tezislərdən narazı olduqlarını soruşub, təhsil sahəsində həyata keçirilən islahatların nazirlik yox, hökumət tərəfindən həyata keçirildiyini qeyd edib. "Əgər oğurlayırdısa, qəbul imtahanları zamanı da rüşvət alardı. Təhsil siyasəti Araik Arutyunyan tərəfindən deyil, hökumət tərəfindən həyata keçirilir və mən dünən hökumət iclasında bu mövzuya müraciət etdim", deyə Nikol Pashinyan etirazçılara qarşı çıxıb.

# Bakı-Gəncə-Bakı dəmir yolu xəttinə əlavə qatar buraxılır

ADY
Azərbaycan Dəmir Yolları QSC

***Bakı-Gəncə-Bakı dəmir yoluna əlavə qatar təyin edilir. "Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyindən AZƏRTAC-a bildirilib ki, məqsəd Dövlət Bayrağı Günü münasibətilə Bakı-Gəncə-Bakı istiqamətində sərnişinlərin daşınmasına artan tələbatı təmin etməkdir.***

Noyabrın 9-da bir istiqamətə təyin olunan 704 nömrəli Bakı-Gəncə sürətli sərnişin qatarı saat 08:45-də Bakıdan yola düşəcək və saat 13:00-da Gəncəyə çatacaq.

Noyabrın 11-də isə Bakıdan və Gəncədən 704/703 nömrəli Bakı-Gəncə-Bakı sürətli sərnişin qatarı iki istiqamətə təyin edilir. Saat 08:45-də Bakıdan yola düşəcək qatar saat 13:00-da Gəncədə olacaq. Saat 17:00-da isə Gəncədən əks istiqamətə hərəkət edəcək, saat 21:15-də Bakıya çatacaq.

# Robert Koçaryan: "Ermənistan boş şüarlar və qeyri-müəyyən xarici oriyentirlərə məhkumdur"



Hazırda həbsdə olan Ermənistanın sabiq prezidenti Robert Koçaryan bildirib ki, konseptual inkişaf proqramı olmayan Ermənistan boş şüarlar və qeyri-müəyyən xarici oriyentirlərə məhkumdur. AZƏRTAC xəbər verir ki, dəftərxanası vasitəsilə "Sputnik Armenia" agentliyinə müsahibə verən Koçaryan sürətlə dəyişən qlobal siyasi proseslər fonunda ermənilərin gələcəyi ilə bağlı bədbin proqnozlar verib.

Koçaryan qeyd edib ki, son aylar NATO-nun etirazlarına rəğmən Türkiyənin Şimali Suriyada hərbi əməliyyatlar aparması və Rusiya ilə birgə hərəkət etməsi, habelə Moskvanın keçirdiyi Afrika sammiti yeni çoxqütblü dünyanın formalaşdığını göstərir. Paşinyan hökumətinin terrorçu reputasiyası olan "Sasna tsrer" təşkilatından dəstək almasını pisləyən keçmiş dövlət başçısı Rusiya ilə Qərbin arasında mövqesiz və qeyri-müəyyən siyasi reveransın da təhlükəli olduğuna işarə edib. Hökumət üzvlərini Vaşinqtondan qrant almaqda ittiham edən sabiq prezident vurğulayıb ki, Rusiyanın hərbi bazasının Ermənistandan çıxarılmasını istəyənlər ermənilərin məhv olacağı təhlükəsini nəzərə almırlar. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçirilən Türkdilli Ölkələrin Sammitində Zəngəzurun Azərbaycan torpaqları olması barədə sözləri də təsadüfən söylənilməyib. "Bu, türk xalqlarının məskunlaşdığı ərazilərin davalı olmasına doğru atılmış bir addımdır", -deyə Koçaryan əlavə edib. O, həmçinin qeyd edib ki, son illər daha da güclənən Türkiyə-Azərbaycan münasibətləri Ermənistanın və Dağlıq Qarabağda qondarma rejimin gələcəyi üçün təhlükədir.

Sabiq prezident Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın bu yaxınlarda BBC telekanalına verdiyi müsahibəni də rüsvayçı adlandırıb. Əlavə edib ki, Paşinyan hökumətinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlarda mövqeyi getdikcə zəifləyir. "Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə!" bəyanatı bizi danışıqlarda yenidən dövlətlərin ərazi bütövlüyü prinsipinə qaytarıb. Bu, çox səhv addım idi... Ermənistan rəhbərliyinin ziddiyyətli bəyanatları, nizamlanma prosesində aydın ifadə edilən mövqe olmaması erməni tərəfinin konstruktivliyini şübhə altına qoyub. Həmsədrlərin bəyanatlarında da bunu görmək mümkündür", - deyə Koçaryan vurğulayıb. O əlavə edib ki, bütün bunlar Azərbaycana danışıqların mənasız olması iddiası irəli sürərək hərbi əməliyyatlar vasitəsilə ərazi bütövlüyünü bərpa etmək hüququ verir.

Koçaryan Qarabağ erməniləri ilə Ermənistan elitası arasında münasibətlərin gərgin olduğunu da diqqətə çatdırıb. O iddia edib ki, Ermənistanda büdcədən müdafiə xərclərinə ayrılan vəsaitin də 20 faiz azaldılması hökumətin əlacsız olmasının göstəricisidir.

# Xaçmazda quldurluq edən şəxs saxlanılıb

Daxili İşlər Nazirliyinin (DİN) 102 - Zəng Mərkəzinə Xaçmaz rayonu ərazisində baş vermiş quldurluq hadisəsi ilə bağlı məlumat daxil olub. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müraciətlə əlaqədar Xaçmaz Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən dərhal təhqiqat aparılıb. Müəyyən edilib ki, noyabrın 6-da saat 20 radələrində Hülövlü kənd sakini R.Balayevin evinin həyətinə girmiş maskalı şəxs onu bıçaqla hədələyib pul verməsini tələb edib. Həmin şəxs müqavimətlə rastlaşdığından istədiyinə nail ola bilməyərək hadisə yerindən uzaqlaşıb.




Faktla əlaqədar Cinayət Məcəlləsinin 181-ci (quldurluq) maddəsi ilə cinayət işi başlanıb. Quldurluğu törətməkdə şübhəli bilinən kənd sakini, əvvəllər məhkum olunmuş T.Nizamov keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

# Azərbaycan Konstitusiyasının qəbul edilməsindən 24 il keçir



***Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir".***

**Heydər Əliyev**

**Azərbaycan xalqının ümummilli lideri**

Bu günlərdə müstəqil Azərbaycan dövlətinin tarixində mühüm hadisənin - ölkəmizin qanunvericilik sisteminin əsasını təşkil edən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 24 illiyi qeyd olunur. İyirmi dörd il bundan öncə müasir dövlətçilik tariximizdə müstəqillik, suverenlik, demokratiya və dünyəvilik kimi dəyərlərin əbədi və dönməz olduğunu bəyan edən ölkəmizin Əsas Qanunu qəbul edilib.

Yeni Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artması baxımından çox mühüm ictimai-siyasi hadisə kimi qiymətləndirilməlidir. Əsas Qanunun qəbul edilməsi, eyni zamanda, ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisi oldu. Bu mərhələ isə ilk növbədə, dövlət siyasətinin mərkəzində insanın və vətəndaşın, onun hüquq və azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının durması ilə səciyyələnir.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının hazırlanması və qəbul edilməsi, həmçinin ölkəmizdə konstitusionalizm ideyalarının inkişafı müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Dövlətimiz üçün olduqca çətin sınaq illərində məhz ulu öndər Heydər Əliyev ölkə vətəndaşlarını ümumi ideya ətrafında birləşdirməyə, ölkədə hökm sürən qeyri-sabitliyə son qoyulmasına nail oldu, dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatların reallaşdırılmasına başlanıldı.

Əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin 1969-cu il iyulun 14-də ilk dəfə siyasi hakimiyyətə gəlişi Azərbaycanda milli intibahın başlanğıc tarixidir. Bu mənada 2019-cu il əlamətdar hadisə - ümummilli lider Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsinin 50 illik yubileyinə təsadüf edir. Belə ki, 1969-1982-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikasına, 1993-2003-cü illərdə müstəqil Azərbaycan dövlətinə rəhbərlik etmiş Ulu Öndər istər Sovetlər Birliyi, istərsə də müstəqillik dövründə Vətəninə və xalqına sədaqətlə xidmət edib. Tarixi hadisələr də bunu sübut edir ki, Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasının, ölkənin düşdüyü olduqca ağır vəziyyətdən xilasının yeganə yolu Heydər Əliyevin quruculuq xətti idi.

Ümummilli lider Heydər Əliyev müstəqil və qüdrətli Azərbaycan dövlətinin əsasını qoyaraq, dövlətin gələcək inkişaf konsepsiyasını da müəyyənləşdirib. Bu gün ictimai sabitliyin davamlı prosesə çevrilməsi, neft strategiyasının hazırlanması Ulu Öndərin dövlətçilik konsepsiyasının tərkib hissəsidir.

Şübhəsiz ki, 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra Ulu Öndərin qarşısında duran əsas məsələlərdən biri məhz dövrün tələblərinə cavab verən yeni qanunvericilik bazasının yaradılması idi. Bunun üçün isə bu qanunvericilik bazasının əsası olan yeni Konstitusiyanın qəbul edilməsi bir zərurətə çevrilmişdi. Beləliklə, ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Konstitusiya Komissiyası tərəfindən hazırlanaraq ümumxalq müzakirəsinə çıxarılan Əsas Qanunun layihəsi 1995-ci il noyabrın 12-də keçirilən referendumda qəbul edildi. Bu əlamətdar hadisə Azərbaycanın müstəqillik illərinin ən mühüm nailiyyətlərindən biri kimi, cəmiyyət həyatında köklü dəyişikliklərə yol açdı, insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaradaraq ölkədə müasir, dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması işində mühüm addım oldu.

Ulu Öndər Konstitusiya Komissiyasının ilk iclaslarında Komissiyanın sədri olaraq müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsinin zəruriliyini əsaslandırıb, Əsas Qanunda əks olunmasını vacib hesab etdiyi məqamları xüsusi olaraq vurğulayıb: "Demokratiya prinsipləri geniş məfhumdur. Əgər bu, bir tərəfdən insanların, vətəndaşların hüquqlarının təmin edilməsi prinsiplərdirsə, ikinci tərəfdən dövlətçiliyin qurulmasını, dövlət quruculuğu prosesinin aparılmasını, inkişaf etdirilməsini və Azərbaycanda həm dövlətin, həm xalqın, həm də hər bir vətəndaşın hüquqlarının qorunmasına təminat verə bilən dövlətin qurulub yaranmasını təmin edən prinsiplər olmalıdır.

Konstitusiya gərək elə bir konstitusiya olsun ki, bir tərəfdən insanların hüquqlarını qorusun, insan azadlıqlarını, demokratiyanı təmin etsin, siyasi plüralizmi təmin etsin, mətbuat, söz, din, dil azadlığını təmin etsin, ikinci tərəfdən isə dövləti, cəmiyyəti idarə etmək üçün təsisatların yaranmasını təmin etsin".

Ölkə Konstitusiyasının ən yüksək hüquqi qüvvəyə malik olan normaları bütün hüquqi tənzimetmə sisteminin əsasında durmaqla, ictimai münasibətlərin inkişafında sabitlik, müəyyənlik amili kimi çıxış edir, ölkədə təşəkkül tapmış dövlətçilik ənənələrinin, hüquq qaydasının, demokratik cəmiyyətin qurulmasına xidmət edir.

Azərbaycan Respublikasının Konstitusiyasında müasir sivil cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə əksini tapıb: insan şəxsiyyətinə və ləyaqətinə hörmət; dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması vasitəsilə xalqın hakimiyyət funksiyalarının həyata keçirilməsində iştirakı; insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu; siyasi sistemdə plüralizmə təminat verilməsi; sosial ədalətə nail olmaq, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və sair.

Dövlət quruluşunun başlıca prinsiplərini müəyyən etməklə yanaşı, Konstitusiya həm də cəmiyyət həyatının müxtəlif sahələrinə dövlətin müdaxiləsinin meyarlarını və belə müdaxilənin yol verilən hədlərini dəqiqləşdirir, bu sahədə dövlət siyasətinin ümumi istiqamətlərini müəyyən edir.

Əsas Qanun konstitusiya quruluşunun vacib başlanğıcı kimi xalq hakimiyyətini bəyan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir.

Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin Azərbaycan dövlətinin ali məqsədi kimi müəyyənləşdirilməsi, dövlətin üzərinə hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat vermək vəzifəsinin qoyulması xüsusi əhəmiyyət kəsb edir. Bu, onun birbaşa göstəricisidir ki, insan amili ölkə Konstitusiyasının əsas diqqət mərkəzində durur.

Şübhəsiz ki, insan və vətəndaş hüquq və azadlıqlarının tanınması və onların təminatı mexanizmlərinin mövcudluğu müstəsna əhəmiyyət kəsb edir. Cəmiyyətin inkişafı yalnız insanın ali dəyər, onun hüquq və azadlıqlarının təmin edilməsinin isə dövlətin başlıca vəzifəsi kimi qəbul edildiyi halda mümkündür. Bu baxımdan Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının, habelə onların reallaşdırılmasının ümumi mexanizmləri olduqca geniş şəkildə təsbit edilib. Xüsusi olaraq vurğulanmalıdır ki, Əsas Qanunda həmin hüquqlar və azadlıqlar dövlətin öz vətəndaşlarına verdiyi xüsusi imtiyaz kimi deyil, hər kəsin doğulduğu andan malik olduğu ali dəyərlər kimi ifadə edilir və onlar toxunulmaz, pozulmaz və ayrılmaz elan olunur. Bununla bağlı, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını qorumağın qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi olması ilə bağlı konstitusiya müddəası olduqca önəmlidir.

Əsas Qanunun ən böyük fəsli də bütünlüklə əsas insan və vətəndaş hüquqları və azadlıqlarına həsr edilib. Həmin fəsildə demokratik, hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquq və azadlıqlar, onların reallaşdırılması mexanizmləri, habelə ayrı-ayrı

# Azərbaycan Konstitusiyasının qəbul edilməsindən 24 il keçir

hüquqların beynəlxalq standartlara müvafiq olaraq, qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Ölkə Konstitusiyası müstəqil dövlətimizin inkişafının əsas istiqamət və prinsiplərini özündə ehtiva edən hüquqi sənəd olaraq, xalqın rifahına xidmət edən dövlət idarəetmə mexanizminin təməlinə çevrilib.

Konstitusiya dövlətin ən ali hüquqi qüvvəyə malik qanunu olmaqla, canlı orqanizm kimi daim inkişafdadır. Bu baxımdan bu ali sənədə də müəyyən vaxtlarda müvafiq əlavə və dəyişikliklər edilərək müasir tələblərə uyğunlaşdırılması kifayət qədər səciyyəvi haldır. Belə ki, hüquq sisteminin əsasını təşkil edən Konstitusiya cəmiyyətin müasir dövrlə uzlaşan inkişaf xüsusiyyətlərini, obyektiv sosial tələbata çevrilən yenilikləri, o cümlədən insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli müdafiə mexanizmlərini ehtiva etməlidir.

Bu zərurətdən irəli gələrək 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixlərində keçirilmiş referendumlar nəticəsində Konstitusiyaya bir sıra əhəmiyyətli əlavələr və dəyişikliklər edilib. İlk dəfə 2002-ci ildə konstitusiya dəyişikliklərinə yaranan ehtiyac bir çox sahələrdə qabarıq nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilən referendumun nəticəsi kimi Əsas Qanuna obyektiv reallıqdan irəli gələn bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bir çox sahələrində əldə edilən nailiyyətlər, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının inkişafı, beynəlxalq məkana inteqrasiyanın sürətlənməsi, bütövlükdə nəzərə çarpan dəyişikliklərin və pozitiv yeniliklərin baş verməsi Əsas Qanunda da bir sıra əlavə və dəyişikliklərin edilməsi məsələsini gündəmə gətirib. Bu məqsədlə 2009-cu il martın 18-də keçirilən ümumxalq səsverməsi nəticəsində edilən əlavə və dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, xüsusilə insan hüquq və azadlıqları ilə bağlı əhəmiyyətli məsələlərin bu ali sənəddə daha dolğun şəkildə ehtiva edilməsinə xidmət edib.

Qeyd edilməlidir ki, cəmiyyət həyatındakı yeniliklərin mütərəqqi xarakteri dövlət idarəçiliyi mexanizminin səmərəli fəaliyyətinə yol açmaqla yanaşı, ictimai münasibətləri tənzimləyən qanunların müasirləşdirilməsinə olan tələbatı da qabarıq şəkildə üzə çıxarır. Bu baxımdan 2009-cu ildə keçirilmiş konstitusiya islahatlarından keçən 7 il ərzində Azərbaycanda baş verən mütərəqqi dəyişikliklər, həmçinin yeni qlobal çağırışların nəticəsi olaraq 2016-cı ildə sonuncu referendum keçirilmişdir.

Ümumilikdə, Konstitusiyaya edilən əlavə və dəyişikliklər insan hüquq və azadlıqlarının qorunması mexanizmlərinin təkmilləşdirilməsinə, siyasi idarəçilik təsisatlarının fəaliyyətinin effektivliyinin artırılmasına, dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin imzalanması prosedurunun təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının qorunmasında bələdiyyələrin məsuliyyətinin artırılmasına xidmət etmişdir. Əsas Qanuna edilən 23 dəyişikliyin əsas hissəsinin sırf insan hüquq və azadlıqlarının qorunması ilə əlaqədar olması, sözsüz ki, 2016-cı il referendumunun mütərəqqi mahiyyətini qabarıq şəkildə üzə çıxarıb.

Əminliklə deyə bilərik ki, Konstitusiyaya edilmiş əlavə və dəyişikliklər demokratik prinsip və dəyərlərin bərqərar olmasının, insana, onun hüquq və azadlıqlarının təminatına ən yüksək səviyyədə göstərilən diqqətin təzahürüdür. Konstitusiya islahatları ölkəmizdə demokratikləşmə proseslərinin genişləndirilməsi, insan hüquq və azadlıqlarının daha səmərəli şəkildə müdafiə edilməsi, cəmiyyətdə bərqərar olan sabitliyin və təhlükəsizliyin, yüksək templə gedən inkişafın möhkəmləndirilməsi məqsədlərinə xidmət edir.

Ölkə Konstitusiyası müstəqil dövlətimizin inkişafının əsas istiqamətlərini və prinsiplərini özündə ehtiva edən hüquqi sənəd kimi dövlət idarəetmə mexanizminin təməlinə çevrilərək Azərbaycan xalqının rifahına xidmət göstərir. 1995-ci ildə Konstitusiyanın qəbulu ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə yol açıb.

Qeyd edilməlidir ki, məhkəmə hakimiyyəti, onun hüquqi dövlətdə rolu və yeri ilə bağlı başlanğıc ideyalar Əsas Qanuna bünövrə kimi qoyulmuş konseptual əsaslardan irəli gəlir. Konstitusiyada məhkəmə hakimiyyətinin anlayışı verilib, cəmiyyətdə yaranan hüquq münasibətlərinin həlli məsələsi məhkəmə orqanlarının səlahiyyətinə aid edilib. Məhkəmə hakimiyyətinə verilmiş yeni səlahiyyətlər nəzərə alınmaqla ilk dəfə olaraq Əsas Qanunda hakimlərin qərəzsizliyi və müstəqilliyinin vacib təminatları əksini tapıb. Bu gün məhkəmə sistemi vətəndaş cəmiyyətinin və beləliklə də, hüquqi dövlətin inkişafında özünəməxsus və əvəzedilməz rol oynayır. Məhkəmələrin üzərinə düşən vəzifələrin qanunvericiliklə müəyyən edilmiş qaydada effektiv şəkildə həyata keçirilməsi son nəticədə dövlətin adından qəbul edilən məhkəmə aktlarına cəmiyyətin etimadının gücləndirilməsi üçün xüsusi zəmin yaradır. Həyata keçirilən dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına, kiçik və orta sahibkarlığın dəstəklənməsinə yönəlmiş islahatlar inzibati və iqtisadi sahələrdə ədalət mühakiməsinin səmərəliliyinin daha da artırılmasını labüd edir.

Dövlətimizin başçısının siyasi iradəsi ilə məhkəmə sisteminin təkmilləşdirilməsi prosesi uğurla davam etdirilir. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərman ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafı üçün olduqca böyük önəm daşıyır.

Bu Fərmanı ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının məntiqi davamı, islahatların aparılmasının yeni keyfiyyət mərhələsi kimi səciyyələndirmək olar. Fərman ölkədə məhkəmə hakimiyyətinin müstəqilliyini gücləndirməklə yanaşı, xalqın hakimiyyətin bu qoluna ictimai etimadının artmasına, nüfuzunun yüksəldilməsinə, vətəndaşların hüquq və qanuni mənafelərinin daha etibarlı müdafiəsinin, ədalət mühakiməsinin səmərəliliyinin inkişafına xidmət edir. Məlum olduğu kimi, Konstitusiyanın Azərbaycanın dövlət və hüquq sisteminə gətirdiyi mühüm yeniliklərdən biri ali konstitusiya ədalət mühakiməsini həyata keçirən orqanın yaradılması oldu. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Konstitusiyada təsbit olunmuş norma və prinsiplərin qorunması, hakimiyyətin müxtəlif orqanları arasında müəyyən edilmiş səlahiyyət balansının təmin edilməsi, habelə konstitusiya hüquq və azadlıqlarının müdafiəsi məqsədi daşıyır və bütövlükdə cəmiyyətə, onun inkişafı prosesinə keyfiyyət baxımından müsbət təsir göstərir, hüququn inkişafı və tətbiqi təcrübəsinin istiqamətləndirilməsinə xidmət edir.

Fəaliyyətə başladığı dövrdən bu günə qədər Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ümumilikdə 405 qərar və 111 qərardad qəbul olunub. Bu qərarlar və onlarda formalaşdırılmış hüquqi mövqelər Konstitusiyanın aliliyinin təmin olunmasına, Əsas Qanunda təsbit edilmiş insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir.

Qeyd edilməlidir ki, 2019-cu il ərzində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən sorğu, müraciət və konstitusiya şikayətləri əsasında bir sıra mühüm qərarlar qəbul olunub. Belə ki, Gəncə Apelyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1-ci, 5-ci, 18-ci, 61-ci və 65-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsi və "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında" Minsk Konvensiyası baxımından şərh edilməsinə dair" 2019-cu il 7 iyun tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd edib ki, Azərbaycan Respublikasının tərəfdar çıxmadığı beynəlxalq müqavilələr üzrə xarici dövlətin məhkəmə hökmlərinə əsasən yaranmış məhkumluqların nəzərə alınması yolverilməzdir.

Həmin Qərarda Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın və Cinayət Məcəlləsinin müvafiq normalarının mənası baxımından belə qənaətə gəlib ki, şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız ölkəmizin Cinayət Məcəlləsinə daxil olunduqdan sonra tətbiq edilə bilər və məhkumluğun yaranması üçün Azərbaycan Respublikasının məhkəmələri tərəfindən çıxarılmış və qanuni qüvvəyə minmiş ittiham hökmü olmalıdır.

Həmçinin qeyd edilib ki, məhkəmənin irəli sürülmüş ittiham daxilində cinayətin tövsifini dəyişmədən cinayətin residivini cəzanı ağırlaşdıran hal kimi nəzərə alaraq Cinayət Məcəlləsinin müddəalarını rəhbər tutmaqla törədilmiş əmələ uyğun cəza təyin etməsi və cəzaçəkmə müəssisəsinin növünü seçməsi ittihamdan kənara çıxma kimi qiymətləndirilə bilməz.

Bununla yanaşı, Konstitusiya Məhkəməsinin Plenumu vurğulayıb ki, ibtidai araşdırmanı həyata keçirən orqanlar cinayət işi üzrə istintaq apararkən təqsirləndirilən şəxsin ölkə daxilində, həmçinin xarici dövlətlərdə əvvəllər cinayət törətməsi və məhkumluğunun olub-olmaması faktının müəyyən edilməsi məsələsinə xüsusi diqqətlə yanaşmalıdırlar.

Bakı Apelyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 36.9-cu maddəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 377.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2019-cu il 29 iyul tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd edib ki, ailə qanunvericiliyində ər-arvadın ümumi əmlakının bölünməsi haqqında onların tələbinə xüsusi iddia müddətinin tətbiqinin nəzərdə tutulması vətəndaşları nikahları pozularkən ümumi əmlakdakı payların bölüşdürməyə təşviq etməklə mülki dövriyyənin sabitliyinin təmin edilməsinə, ər-arvadın ümumi əmlakı ilə bağlı gələcəkdə yarana biləcək çoxsaylı məhkəmə mübahisələrinin qarşısının alınmasına yönəlib.

Həmin Qərarda Konstitusiya Məhkəməsinin Plenumu müvafiq icra hakimiyyəti orqanı və məhkəmələr tərəfindən nikaha xitam verilərkən tərəflərə onların nikah dövründə əldə etdikləri ümumi əmlaka dair paylarının bölünməsi məsələsinin Ailə Məcəlləsinin 36.9-cu maddəsində göstərilən müddət çərçivəsində həll olunmasının məqsədəmüvafiqliyinin izah edilməsini tövsiyə edib.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edib ki, məhkəmələr ər-arvadın ümumi əmlakdakı paylarının bölünməsi tələbinə dair iddialara baxarkən müvafiq tərəfin ümumi əmlakla bağlı hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu günü müəyyən etmək üçün işin konkret hallarını ətraflı araşdıraraq müvafiq nəticəyə gəlməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarı ilə mülki və ailə qanunvericiliyinin müvafiq normalarına verilmiş şərh nəticəsində həmin normaların təcrübi tətbiqində müəyyən dəyişikliklərə səbəb ola biləcəyini nəzərə alaraq, mülki dövriyyənin sabitliyinin, məhkəmə qərarlarının stabilliyinin və nüfuzunun qorunması məqsədilə Plenum hesab edib ki, Qərarda əks olunmuş hüquqi mövqelər onun qüvvəyə minməsindən sonra yaranan, habelə Qərarın qüvvəyə mindiyi tarixdə (gündə) məhkəmələrin icraatında olan mübahisələrə şamil olunmalıdır.

Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9-cu və 91.7-ci maddələrinin şərh edilməsinə dair" 2019-cu il 14 oktyabr tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd edib ki, hər bir şəxs hüquqlarının müdafiəsində öz mülahizəsinə görə, istənilən üsul və vasitələrdən istifadə edə bilər, lakin bu zaman o, qanunla qadağan olunmuş hərəkətlərə yol verməməlidir. Belə qadağanın qanunvericilikdə birbaşa nəzərdə tutulması vacib deyil. Bu, müvafiq hüququn həyata keçirilməsinin qanunla müəyyən olunmuş qaydası ilə də şərtləndirilə bilər.

Bu Qərarda, həmçinin qeyd olunub ki, şübhəli və ya təqsirləndirilən şəxs müdafiə hüququnu həyata keçirərkən özünə bəraət qazandırmaq və ya məsuliyyətini yüngülləşdirmək məqsədilə ona qarşı irəli sürülmüş ittihamla əlaqədar sübutlar təqdim etməklə istintaqın və məhkəmə araşdırmasının gedişinə təsir etmək hüququna malikdir. Lakin bu zaman şübhəli və ya təqsirləndirilən şəxs cinayətin törədilməsinə aidiyyəti olmayan hər hansı bir şəxsin adını bilərəkdən çəkdiyi təqdirdə bilə-bilə yalan xəbərçiliyə görə məsuliyyət daşımalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edib ki, qanunverici, Cinayət-Prosessual Məcəlləsinin 90.9-cu və 91.7-ci maddələrində şübhədən və ya irəli sürülmüş ittihamdan müdafiə olunmaq üçün cinayətin törədilməsinə aidiyyəti olmayan şəxs haqqında bilərəkdən yalan məlumatların verilməsində ifadə olunan əməlləri istisna etmişdir və bu hal yalan xəbərçilik barəsində cinayət təqibi həyata keçirilən şəxsin özünümüdafiə vasitəsi kimi qəbul oluna bilməz.

Ardı Səh. 10

# Azərbaycan Konstitusiyasının qəbul edilməsindən 24 il keçir

Əvvəli-Səh-9

Həmin Qərarda Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlib ki, Cinayət-Prosessual Məcəlləsinin adıçəkilən maddələrinin “Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə” müddəası şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin cinayətdə iştirakı barədə bilə-bilə yalan məlumatların verilməsini nəzərdə tutur. Belə hərəkət özünümüdafiənin qanuni üsulu kimi qəbul edilə bilməz və bu əməl Cinayət Məcəlləsinin 296-cı maddəsi ilə bilə-bilə yalan xəbərçilik etmə cinayətinə görə məsuliyyət yaradır.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsi gənclər arasında hüquq düşüncəsinin və eyni zamanda, hüquq mədəniyyətinin inkişafına və təbliğinə xüsusi diqqət yetirir. Gənclərin hüquqi inkişafı və Konstitusiyanın əsasları və mahiyyətinin daha dərindən öyrənilməsi məqsədilə ənənəvi olaraq, hər il ölkəmizin müxtəlif bölgələrində Konstitusiya Günü münasibətilə ali və orta təhsil müəssisələrində hüquq olimpiadası keçirilir. Dövlətin ən yüksək normativ hüquqi aktı olan Konstitusiya haqqında ətraflı bilikləri olan gənclər şübhəsiz ki, hüquqi cəmiyyətin inkişafına gələcəkdə öz töhfəsini verə biləcəklər.

Ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq, Konstitusiya Məhkəməsinin fəaliyyətində gənclərin iştirakı müasir dövrün tələblərinə uyğun aparılır. Belə ki, ali təhsil müəssisələrinin tələbələri mütəmadi olaraq Məhkəmədə təcrübə keçərək, konstitusiya nəzarəti orqanının iş fəaliyyəti ilə əyani surətdə tanış olmaq üçün geniş imkanlar əldə edirlər.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı”nda və dövlətimizin başçısının 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanları qarşısında qoyulan vəzifələrdən irəli gələrək Konstitusiya Məhkəməsində Könüllü Proqramı həyata keçirilir.

Konstitusiya Məhkəməsində həyata keçirilən Könüllü Proqramına gənclərin marağı kifayət qədər böyükdür. Belə ki, könüllülər Konstitusiya Məhkəməsi Aparatının müxtəlif şöbə və sektorlarında təcrübə keçir, Məhkəmənin Plenum iclaslarının təşkil edilməsi, habelə vətəndaşların qəbulu prosesində bilavasitə iştirak edir, səlahiyyətli subyektlərin sorğuları, məhkəmələrin müraciətləri, həmçinin vətəndaşların şikayətlərinin öyrənilməsi vasitəsilə Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqların müdafiə mexanizmi ilə yaxından tanış olurlar.

2020-ci ildə qəbul edilməsinin 25 illiyi tamam olan Azərbaycan Respublikasının Konstitusiyası dövlətin ilkin başlanğıclarını özündə ehtiva edən əsas qanun kimi özünü tam olaraq doğruldub. Qanunvericilik sisteminin əsasını təşkil edən, ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya hər zaman dövlətçilik ənənələrinin, hüquq qaydasının qorunmasına xidmət edir.

Ölkəmizdə həyata keçirilən çoxşaxəli islahatların əsasında güclü iqtisadiyyat dayanır. Məlum olduğu kimi, bu il dövlətimiz üçün əlamətdar hadisə - “Əsrin müqaviləsi”nin imzalanmasının 25 illiyi tamam olub. “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın dirçəlişinə, iqtisadi inkişafına böyük yol açdı. Ulu öndər Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nəticəsində dövlətimiz regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, bir sıra nəhəng layihələrin həyata keçirilməsində regionda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrildi.

Azərbaycan dünyanın sabit və dayanıqlı inkişaf edən ölkələri sırasında olmaqla, sözün əsl mənasında, müstəqil siyasət yürüdən dövlətdir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu müstəqil və demokratik dövlət quruculuğu kursu sürətlə yeniləşən dünyanın tələblərinə cavab verir. Dövlətin inkişaf konsepsiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da təkmilləşdirilib, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə mütərəqqi dəyişikliklərin edilməsi nəticəsində ölkəmizdə yüksək inkişaf dinamikasına nail olunub.

İnkişaf özü davamlı proses olduğundan, bu davamlılığın təmin edilməsi üçün islahatların həyata keçirilməsi vacibdir. Dövlətimizin başçısı tərəfindən həyata keçirilən kadr və struktur islahatları idarəetmə sistemində aparılan yeniliyin növbəti mərhələsidir. Aparılan struktur islahatları dövlət idarəçiliyinin modernləşməsinə və optimallaşmasına, şəffaflığın, müxtəlif sahələrdə çevikliyin artırılmasına xidmət edir, son nəticədə isə Əsas Qanunda əksini tapmış prinsiplərin təmin edilməsinə yönəlib.

Bu gün Azərbaycan dünya siyasətində xüsusi və mühüm yer tutur. Artıq bir neçə ildir ki, Azərbaycan regional və qlobal əhəmiyyətli məsələlərin müzakirə edildiyi məkana çevrilib. Ölkəmiz beynəlxalq miqyaslı tədbirlərə, forumlara, dövlət başçılarının Zirvə görüşlərinə, eyni zamanda, mötəbər humanitar və iqtisadi tədbirlərə, idman yarışlarına layiqincə ev sahibliyi edir.

2019-cu ildə də bir sıra olduqca mötəbər beynəlxalq tədbir məhz Bakıda keçirilib. Məlum olduğu kimi, oktyabrın 15-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü Bakıda təşkil edilib və Türk Şurasına sədrlik Azərbaycana keçib.

Əsası 10 il əvvəl - 2009-cu ildə Naxçıvanda keçirilən Zirvə Görüşündə qoyulan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü Türk Şurasının nüfuzlu quruma çevrildiyini bir daha təsdiqlədi. Bu Zirvə toplantısı bir daha göstərdi ki, Azərbaycan yalnız bölgədə əsas oyunçu olmaqla kifayətlənmir, eyni zamanda, türkdilli dövlətlər sırasında əsas ölkə statusunu qazanıb.

Həmçinin oktyabrın 25-26-da 120 ölkəni birləşdirən və BMT-dən sonra ikinci ən böyük siyasi dialoq platforması olan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə ev sahibliyini məhz ölkəmiz edib. Hərəkatın növbəti Zirvə Görüşünün ölkəmizdə keçirilməsi Azərbaycanın qlobal proseslərdəki rolunun və beynəlxalq nüfuzunun gündəngünə artdığını bir daha təsdiqləyir. Prezident İlham Əliyev Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana keçməsi ilə bağlı qeyd edib: “Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür”.

Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı fəaliyyətini ərazi bütövlüyü, suverenlik, dövlətlərin və xalqların bir-biri ilə qarşılıqlı hörmət prinsipləri əsasında yaşaması, bir-birinin daxili işlərinə qarışmama kimi əsasların olduğu tarixi Bandunq prinsipləri üzərində quracaq.

Təqdirəlayiq haldır ki, bu əsaslar ölkəmizin xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşərək ölkə Konstitusiyasında birbaşa təsbit edilib.

Əminliklə demək olar ki, Azərbaycanın 2019-2022-ci illər ərzində Hərəkata sədrlik etməsi dövlətimizin beynəlxalq aləmdə rolunun və nüfuzunun daha da artmasına, həmçinin regionda mövqelərimizin möhkəmlənməsinə geniş imkanlar açacaq.

Ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvü olmaqla siyasi, həmçinin iqtisadi və mədəni cəhətdən həm regional, həm də qlobal mərkəz olaraq qəbul edilir. Dövlətimizin bu cür inkişafı və tərəqqisi şübhəsiz ki, dövlətimizin başçısının şəxsi nüfuzu, qətiyyəti, siyasi iradəsi, uğurlu daxili və xarici siyasəti nəticəsində mümkündür. Əminik ki, dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı tarixi nailiyyətlərə imza atmaqda bundan sonra da davam edəcək.

Fürsətdən istifadə edərək Azərbaycan xalqını Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi adından əlamətdar bayramlar 9 noyabr - Dövlət Bayrağı Günü və 12 noyabr - Konstitusiya Günü münasibətilə təbrik edir, xalqımıza xoşbəxt həyat və firavanlıq arzulayırıq.

***Fərhad Abdullayev***
***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri***



# 9 Noyabr Dövlət Bayrağı Günüdür

## *Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir*

***Müasir dünyada müstəqil Azərbaycan dövlətinin rəmzləri onun dövlətçilik əlaməti olmaqla yanaşı, ölkənin tarixi keçmişindən gələn və gələcəyə istiqamətlənən özünəməxsusluğunu əks etdirir. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir". Azərbaycan Respublikasının dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağı siyasi-ideoloji və mənəvi baxımdan əhəmiyyətlidir göy, qırmızı, yaşıl rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət üçrəngli bayraq Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. Hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir.***



Göy rəng Azərbaycan xalqının türk mənşəli olmasını göstərir, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni və inkişaf istəyini ifadə edir. Yaşıl rəng isə islam sivilizasiyasına və islam dininə mənsubluğun göstəricisidir. Deməli, bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən danışır. Bayrağımız qürur mənbəyimizdir və and yerimizdir. Müqəddəs varlıq kimi üçrəngli bayrağımıza and içirik. Bu gün hər bir vətəndaşın üzərində ciddi mənəvi məsuliyyət var. Hər bir vətəndaş bu yükü öz çiyinlərində hiss etdikcə, onun dövlətçilik idealları püxtələşir. O, şəxsi həyatındakı irəliləyişləri belə öz dövlətinin milli inkişafından ayrılmaz şəkildə dərk edir. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib. O, ölkəmizdə, qürurverici bir haldır ki, Dövlət Bayrağı Günü qeyd olunur. Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə Dövlət Bayrağı Günü ölkəmizdə 9 noyabr tarixində qeyd olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan indiki Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına sədd qoyulsa da, bu, xalqın təfəkküründə dərin iz salmışdır. Hər kəs bu böyük amalla Azərbaycan bayrağının vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. İllər uzunu müstəqilliyə doğru gələn yolda Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qaldırılıb. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gərək hər bir evdə Azərbaycan bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun".

Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının bayrağının Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdən biri kimi dəyərləndirirdi: "Vətəndaşlarımıza, xüsusən, gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə, bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycanın Bayrağına, Gerbinə və Himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir".

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Dövlət Bayrağı milli suverenliyin simvolu və rəmzi kimi təsdiq olunub, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında çoxsaylı normativ aktlar qəbul edilib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlət rəmzlərinə böyük diqqət göstərir. Belə ki, Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları müəyyənləşdirilib. Bu qanunla Dövlət Bayrağının qaldırılmalı və yerləşdirilməli olduğu yerlər müəyyən edilmişdir. Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli Sərəncamına əsasən, Bakının Bayıl qəsəbəsində dünyanın ən hündür bayraq dirəyi inşa edildi və Dövlət Bayrağı Meydanı salındı.

Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. "Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir" deyən Azərbaycan Prezidenti İlham Əliyev bu gün Azərbaycanın hər bir yerində dalğalanan Dövlət Bayrağının Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra işğal altında olan torpaqlarda qaldırılacağına əminliyini bildirib: "Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də Onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Vətən torpağının bütövlüyü uğrunda şəhidliyə hazır olan Azərbaycan əsgəri o bayrağa sarılaraq, şərəfli mübarizəyə qoşulur və vətənin azadlığı uğrunda övladını qurban vermiş valideynlər şəhid cənazəsinə bükülmüş müqəddəs bayraqla təskinlik tapırlar. Budur bayrağın müqədəsliyi və bayrağımıza olan sevgi.

Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur. Müstəqil dövlətimizin bayrağı hər zaman uca tutulur və müqəddəslik rəmzinə çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Bakıda Beynəlxalq Kollegial Proqramlaşdırma müsabiqəsi keçiriləcək

Noyabrın 10-da Bakıda Beynəlxalq Kollegial Proqramlaşdırma (ICPC - International Collegiate Programming Contest) regional yarışması təşkil olunacaq. AZƏRTAC xəbər verir ki, müsabiqədə Azərbaycanın müxtəlif təhsil ocaqlarında və universitetlərində oxuyan 250-dək tələbənin iştirak edəcəyi gözlənilir. Yarışmada qalib gələn tələbələr Gürcüstanda keçiriləcək növbəti mərhələdə ölkəmizi təmsil edəcəklər. ICPC kimi tanınan Beynəlxalq Kollegial Proqramlaşdırma müsabiqəsi hər il dünyanın müxtəlif universitetləri arasında keçirilən proqramlaşdırma üzrə çoxmərhələli rəqabət yarışıdır. 2018-ci ildə ICPC müsabiqəsində 110 ölkənin 3 min 223 universitetindən 52 mindən çox tələbə iştirak edib. Regional müsabiqənin baş sponsoru PAŞA Bankdır.

acm International Collegiate Programming Contest

## Estoniyada "Nəsimi" filmi nümayiş olunacaq

Noyabrın 27-də Estoniyanın paytaxtı Tallinndəki "Artis Cinema" salonunda Azərbaycan filmi "Nəsimi"nin nümayişi olunacaq. AZƏRTAC xəbər verir ki, baş rolda Azərbaycanın Xalq artisti Rasim Balayevin oynadığı film Azərbaycan dilində və ingilis subtitrləri ilə göstəriləcək. Giriş sərbəstdir.

"Nəsimi ili" çərçivəsində eston izləyicilərə göstəriləcək film xalqımızın dahi şairi İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr olunub.



***Hər il 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur. Bu gün ilk milli Konstitusiyamızın qəbul edilməsindən 24 il ötür. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçilik tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, ümumxalq səsverməsi - referendum yolu ilə özünün ilk milli Konstitusiyasını qəbul edərək, Ana Qanunumuzda qanunçuluğu ideya və dəyərlər sistemi kimi təsbit etmiş oldu. Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi.***




# 12 Noyabr Azərbaycan Respublikasının Konstitusiya Günüdür




Azərbaycan Respublikasının Əsas Qanunun qəbulu təkcə ölkədə yeni hüquqi bazanın yaradılması demək deyildi. Bu, mahiyyət etibarilə Azərbaycanda müstəqil dövlət quruculuğu tarixində keyfiyyətcə yeni səhifənin açılması idi. Bu baxımdan, müstəqilliyin ilk illərindən siyasi çəkişmələr, hakimiyyət böhranı, qiyam və çevriliş cəhdləri ilə silkələnən Azərbaycan üçün Yeni Konstitusiyanın qəbulu çoxdan gözlənilən daxili sabitliyin bərqərar olması demək idi. Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və qəbul edilməsi Ümummilli Lider Heydər Əliyevin dönməz iradəsi, gərgin əməyi, dərin düşüncəsi və siyasi uzaqgörənliyi nəticəsində mümkün oldu. Ulu Öndər Heydər Əliyev Konstitusiyanın dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirən sənəd olduğunu vurğulayırdı: “Hakimiyyət bölgüsü, qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri - bunların hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər konstitusiyamızın əsasını təşkil etməlidir”.

1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-i Azərbaycan Respublikası Konstitusiya Günü elan edildi. Hər il 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur.

İlk ali Qanunu qəbul etməklə, Azərbaycan xalqı bütün cəmiyyətin və hər kəsin firavanlığını, azadlığını və təhlükəsizliyinin bərqərar edilməsinə nail oldu. Müstəqil dövlətin ilk konstitusiyası, eyni zamanda, xalqımızın dünyəvi, milli-mənəvi prinsipləri rəhbər tutaraq, seçdiyi gələcək yolun ifadəsi idi. 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olan konstitusiyanın mühüm özəlliklərindən biri də vətəndaş hüquq və azadlıqlarına geniş yer ayrılması idi. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşuldu. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Azərbaycan MDB məkanında və müsəlman dünyasında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. 14 iyul 1998-ci il tarixdə Azərbaycanda konstitusion müstəvinin ən vacib institutlarından biri - Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyev konstitusion hüququn təməl prinsiplərindən olan söz azadlığının təminatı ilə bağlı mühüm bir qərara imza atdı. Belə ki, mətbuat üzərində senzura tamamilə ləğv edildi. 1999-cu il dekabrın 12-də Konstitusiyada təsbit olunmuş keçid müddəalarından daha birinə əməl olundu - ölkədə ilk bələdiyyə seçkiləri keçirildi, yerli özünüidarə institutu fəaliyyətə başladı. 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə ölkəmiz bir sıra Konvensiyalara qoşuldu, dövlətin hüquqi sisteminin demokratik dünya standartlara uyğunlaşdırılması davam etdi. 2002-ci ildə İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman Təsisatı fəaliyyətə başladı.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizin tərəqqisinə, inkişafının davamlı xarakter daşımasına, dövlət müstəqilliyinin möhkəmlənməsinə, idarəetmənin təkmilləşdirilməsi və demokratik inkişaf prosesinə əhəmiyyətli töhfələr verir. Prezident İlham Əliyevin ötən 15 ildə Azərbaycana rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində uğurlar əldə edilib, ardıcıl olaraq sosial-iqtisadi islahatlar həyata keçirilib. Cəmiyyətin inkişafı, yeni ictimai-siyasi münasibətlərin meydana çıxması konstitusiyada islahatların aparılmasını zəruri etdiyindən, 2016-cı ildə növbəti dəfə Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi keçirildi. Konstitusiya islahatları cəmiyyətin sosial sifarişi olaraq ciddi bir zərurət kimi meydana çıxdı. Beynəlxalq standartlara və demokratik prinsiplərə uyğun azad, şəffaf və seçicilərin fəallığı şəraitində keçirilən referendumun nəticələri Azərbaycan xalqının iradəsini bir daha tamamilə əks etdirdi.

Silahlı Qüvvələrlə bağlı edilən dəyişikliklər də təqdirəlayiqdir. Əgər bu günə qədər Ali Baş Komandan statusu yalnız ordu, Silahlı Qüvvələr üzərində idisə, artıq konstitusiyaya edilən dəyişikliklərə əsasən, bütün silahlı birləşmələr Ali Baş Komandanın əmrinə tabedir. Digər mühüm və vacib məqamlardan biri isə prezidentlik müddətinin 5 ildən 7 ilə artırılmasıdır. Bu, həm dövlət başçısına irəli sürdüyü proqram və layihələri daha məqbul zaman formasında icra etməyə imkan yaradır, həm də özündə dünya təcrübəsini ehtiva edir. Dünyanın bütün demokratik dövlətlərində vitse-prezidentlik institutu var. Dünya təcrübəsində olan bu demokratik ənənənin Azərbaycan Konstitusiyasında da əks olunması müsbət haldır. Bütün bunlar çevik və səmərəli siyasət aparmağa, ölkənin siyasi nüfuzunu və iqtisadi-hərbi qüdrətini daim artırmağa, iqtisadi və siyasi səhnədə olduğu kimi, idarəetmədə də islahatlar keçirməyə imkan yaradacaq. Bu dəyişikliklər hazırlanan zaman dünyanın qabaqcıl ölkələrinin təcrübəsi nəzərə alınıb, Azərbaycanın özünəməxsus inkişaf yolunun vacib prinsipləri qorunub. Azərbaycanın dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatlar, tərəqqi və quruculuq prosesləri öz mənbəyini, məhz Azərbaycan Respublikasının Konstitusiyasından götürüb. Əsas Qanunda təsbit edilmiş prinsip və istiqamətlər ölkəmizdə siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə davamlı inkişafın əldə olunmasına zəmin yaradıb. Azərbaycan dövləti bu gün öz tarixinin böyük tərəqqi ilə xarakterizə olunan dövrünü yaşayır, öz inkişafının keyfiyyətcə yeni və daha yüksək mərhələsinə qədəm qoyub. Ölkə iqtisadiyyatı dinamik inkişaf edir, infrastruktur və sosialyönümlü layihələr uğurla həyata keçirilir, xalqımızın rifahı günbəgün daha da yüksəlir, ölkəmiz regionun lider dövləti kimi beynəlxalq miqyasda söz sahibinə çevrilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Nar Festivalında iştirak haqqı qazanan qaliblər məlum oldu




Hər zaman yenilikləri və maraqlı layihələri ilə seçilən “Nar”, abunəçilər və sosial şəbəkə istifadəçiləri üçün Göyçayda keçiriləcək Nar Festivalında iştirak imkanı təqdim edən müsabiqəni yekunlaşdırıb. Mobil operatorun rəsmi Facebook və İnstagram səhifələrində keçirilmiş müsabiqə sosial media istifadəçilərinin böyük marağına səbəb olub. Qeyd edək ki, verilmiş məntiqi tapşırığı 275 nəfər düzgün cavablandırıb. Təsadüfi seçim yolu ilə seçilən 10 nəfər isə “Nar” əməkdaşları ilə birgə noyabrın 9-da Göyçayda keçiriləcək Nar Festivalında iştirak edəcək.

“Nar” kampaniyaları, məhsul, xidmət və tarifləri haqqında məlumatı nar.az internet səhifəsindən, eyni zamanda sosial media səhifələrindən əldə etmək mümkündür.



# BSU-da Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir keçirilib



***Bakı Slavyan Universitetində 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününə həsr olunmuş "Yüksəklikləri sevən bayrağım" adlı tədbir keçirilib. Tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin universitetin foyesində yerləşən büstü önünə əklil qoyulub. Sonra Beynəlxalq münasibətlər, regionşünaslıq və jurnalistika fakültəsində təhsil alan tələbələrin iştirakı ilə tədbirə Dövlət Bayrağı gətirilib.***

Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva dövlət rəmzlərinin milli-mənəvi dəyərlərimizdəki yerindən söz açıb. N.Əliyeva bildirib ki, ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün oldu. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra milli bayrağımız ilk dəfə Ulu Öndər tərəfindən Naxçıvanda qaldırıldı. Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir.

Azərbaycan bayrağının ölkəmizin siyasi qüdrətini, iqtisadi potensialını, hərbi gücünü əks etdirdiyini deyən N.Əliyeva çıxışında ölkənin hər bir yerində aparılan quruculuq-abadlıq işlərindən, həyata keçirilən iqtisadi islahatlardan da söz açıb. Rektor qeyd edib ki, bu gün Azərbaycan inkişaf edən ölkədir. Fərəhli haldır ki, indi əksər bölgələrimizdə gənclərin iştirakı ilə üçrəngli bayrağımızın şərəfinə mühüm tədbirlər və xüsusi layihələr həyata keçirilir. Tarix boyu çətin sınaqlardan keçmiş Azərbaycan xalqının bu gün yaşadığı firəvan həyata görə, qürur hissi keçirdiyini deyən N.Əliyeva bu inkişafın Ümummilli Lider Heydər Əliyevin dövlətçilik təcrübəsi və Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində, əldə olunduğunu vurğulayıb.

**ZÜMRÜD BAYRAMOVA**

# 9 noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilmişdir



***Dünən laçınlı məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının birgə təşkilatçılığı ilə Dövlət Bayrağı Günü ilə bağlı tədbir keçirilmişdir.***

Rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə Yeni Azərbaycan Partiyasının Laçın rayon qərargahında keçirilən tədbiri rayon icra hakimiyyəti başçısının müavini, Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatının sədri İlqar İlyasov açaraq, tədbir iştirakçılarını bayram münasibətilə təbrik etdi. Təşkilat sədri çıxışında bu gün Azərbaycan Respublikası üzərində dalğalanan üçrəngli müqəddəs Dövlət Bayrağımızın ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edildiyini, 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olduğunu, eyni zamanda, müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, müasirlik və islamçılıq" düsturu müəllifinin görkəmli Azərbaycan mütəfəkkiri Əli Bəy Hüseynzadə olduğunu bildirmişdir.

Həmçinin, o, qeyd etmişdir ki, rəsmi istifadəsinə qadağa qoyulmuş üçrəngli bayrağımız 71 ildən sonra 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də isə, Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək, onu Dövlət bayrağı elan etmişdir. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi, onun dövlət rəmzlərini, o cümlədən, Dövlət bayrağını bərpa etmişdir.

Tədbirdə digər çıxış edənlər Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli Sərəncamı ilə hər il noyabr ayının 9-nun Azərbaycan Respublikasında Dövlət Bayrağı Günü kimi qeyd edilməsinə, Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramın ən bariz nümunəsi kimi yanaşdıqlarını, xüsusilə, vurğulamışlar.

**RƏFİQƏ**

# 4G "Nar" şəbəkəsi artıq Zərdabda!




Abunəçilərini yüksəkkeyfiyyətli 4G şəbəkəsi ilə təmin edən "Nar" bütün ölkə ərazisində əhatə dairəsini genişləndirməyə davam edir. Mobil operator daha bir rayonda -Zərdabda ilk dördüncü nəsil LTE texnologiyasına əsaslanan baza stansiyasını quraşdırıb. Bununla da, "Nar" 4G texnologiyalı baza stansiyalarını Azərbaycanın 54 regionunda quraşdırmağa nail olub. Hazırda mobil operatorun regionlarda quraşdırdığı 4G baza stansiyalarınını sayı 1400-dən çoxdur.

Qeyd edək ki, "Nar" Bakı və Abşeron yarımadası ilə yanaşı, bölgələrdə yaşayan abunəçilərinə də xüsusi diqqəti ilə seçilir və regionlarda da 4G baza stansiyalarının sayını sürətlə artırır. Hazırda ölkə əhalisinin 92%, ölkə ərazisinin isə 74,3%-i (işğal olunmuş ərazilər istisna olmaqla) "Nar"ın yüksəkkeyfiyyətli 4G şəbəkəsindən yararlanır. Eyni zamanda, "Nar" Azərbaycanın ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin edir. Mobil operatorun 4G istifadəçilərinin 67%-i Bakının, 33%-i isə regionların payına düşür. Hazırda "Nar" 8600-dən çox baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib.

# Satıb-satılan yırtıcı quduzlar...

## Və yaxud Dantenin ''İlahi komediya'' əsərində satqınları cəhənnəmin ən sonuncu - 9-cu qatında yerləşdirməsi əbəs deyil

***Düzü, bu müxalifət elə bir məxluqdur ki, nəinki cəhənnəmin 9-cu qatında yerləşə bilər, məncə, cəhənnəmdə də yerləri ola bilməz. Bunu elm də sübut edib. Çünki müxalifət deyəndə, satıb-satılan dağıdıcı düşərgənin çaqqalları yada düşür. Baxın görün, Ömər Xəyyama görə satqınlıq nə deməkdir? Ömər Xəyyama görə, ''insanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar, bu da, həyasızlığın göstəricisidir''.***

Son dövrdə məlum ölkələrdə baş verən səs-küylü hadisələrdən sonra insanı satqınlığa hansı vəziyyətin sövq etməsi psixologiya elmi tərəfindən geniş təhlil edilir. Necə ola bilər ki, ata-ananın, əcdadlarının yaşadığı, ən gözəl xatirələrinin ünvanı olan, ana adlandırdığın vətənə xəyanət edəsən? Əclaflıq adlanan oyun qaydalarını qəbul edəsən? Psixologiya elminə görə, xəyanət - elmi baxımdan, daha geniş olan satqınlıq anlayışına daxildir.

### Xəyanətlərin ən böyüyü - dövlətə xəyanətdir

Əsasən dağıdıcı düşərgənin üç yırtıcı əxlaqsızları var. Sual oluna bilər ki, kimlərdir? Məgər müxalifətin dağıdıcı düşərgəsində yırtıcılar üçdür? Bu infeksiyalı düşərgədə elə bir mühitdədir ki, orada yırtıcıların sayı-hesabı yoxdur. Ancaq "Milli Şura"nın yırtıcı ünsürləri Gültəkin Hacıbəyli, Cəmil Həsənli və Əli Kərimlidir ki, özlərini "müqəddəs üçlük" yox, yırtıcı üçlük elan etməlidirlər. Ancaq bu reallığı hələ də, sadəcə, anlamırlar ki, biri beşinə dəyməz, beşi də birinə. Fərqində deyillər ki, "Milli Şura" çoxdan tarixin arxivinə gömülüb və yaxud gömülməyib, təki qrant alsınlar.

Bu aksiomadır ki, erməni xüsusi xidmət orqanlarına xidmət edən hər kəs, şübhəsiz ki, Azərbaycanın düşmənidir. O zaman ermənilərin dostları ilə dostluq edən "Milli Şura"çılar kimdir? Nə araşdırmaq lazımdır, nə də papağını qarşına qoyub fikirləşmək. Cavab bəllidir. Çünki Vətən daşına dönük çıxanlar, bu satqınlar" kadrosunda" toplaşıb. Belə satqınlar nə qanır Vətən, millət nə qədər böyük bir milli dəyər, mənəviyyatdır. Vətən millətin doğulduğu, doyduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Vətən gözümüzün dünyada ilk gördüyü torpaqdır. Ancaq bu gün Orduxan Teymurxan, Emin



Hüseynli, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Həbib Müntəzir, Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, Leyla Yunus və digər quduzları susdurmaq heç də çətin deyil. Və özlərini "mühacir" kimi qələmə verərək, havadarlarının xüsusi sifarişini yerinə yetirən erməni qulbeçələridir. Amma bu bədbəxtlər hələ də bilmirlər ki, havadarları tərəfindən uzunqulaq kimi yaxşı istifadə olunurlar. Şərəfsizlik simvolu olan bu quduzlar hürə-hürə qalacaqlar.

### Hürə-hürə qalan şərəfsizlər

Bəzən bu ifadəni işlətdiyimə görə, mənə irad tuturlar ki, belə sözlər işlətmə. Ay mənə irad tutan "dostum", haqqı qoyub, nahaq danışana yerini göstərməyək? Lənət olsun xalqa, dövlətçiliyə xəyanətə, min lənət erməniyə xidmət edənlərə. Belələrinə cavab verməyib necə susasan? Ay biqeyrətlər, kimsiniz ki, Azərbaycanın siyasi həyatında baş verənlərə qiymət də verəsiniz. Şəxsi, qrup mənafeyi naminə milli və dövlət maraqlarını satmaq, xalqımıza, dövlətimizə qarşı dəfələrlə vandalizm, terror aktları, soyqırımlar törədən üzdəniraq millətin nümayəndələri ilə çiyin-çiyinə durmaq əsl rəzalətdir. Ancaq bunu qana bilməzsiniz. Çünki Azərbaycanın uğurlarını gözü götürməyənlər daim Ə.Kərimlidən və onun yaxın ətrafından istifadə edərək, ölkədə təxribat yaratmağa can atıblar. Orduxan Teymurxan, Emin Hüseynli, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Həbib Müntəzir və bu kimi parazitlərin əməlləri iflasa uğrayacaq. Çünki onlar hadisələrin məcrasında idarə olunan quduzlardır. İdarə olunan isə, əslə, idarə edənin məramlarından və niyyətlərindən xəbərdar olmur. "5-ci kolon"u formalaşdırmağa nail olan həmin dairələrin böhtanlarını gerçək kimi qəbul etdirmək mexanizmləri də çox sadədir. Azərbaycanı ölkə və dünya ictimaiyyətinə "dəhşətli obraz"da" təqdim etmək üçün satın alınan Vətən xainləri Vidadi İsgəndərli, Orduxan Teymurxan, Tural Sadıqlı, xarakterinə uyğun psixologiyasını soyadı ilə doğruldan Həbib Müntəzir, Qurban Məmmədov, Qənimət Zahid kimi ünsürlər də hər zaman olub. Və bu kimi Vətən xainlərinin torpağına, elinə-obasına ermənidən betər qənim kəsilən namərdlərin əsl qazancı isə xalqın nifrətidir. Bax, bu marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib özgə yalı ilə yalanmaqla heç nəyə nail ola bilməyəcəklər. Beləleri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

**Rəfiqə HÜSEYNOVA**

# Paşinyan xalqı ilə məzələnir



***Küçə demokratı olan Nikol Paşinyan müxtəlif sərsəm ideya və təklifləri ilə siyasi gündəmdə gülüş obyektinə çevrilib. Artıq ermənilərin özləri belə, ondan qurtulmaq üçün fəaliyyətə başlayıblar. Amma Paşinyan çabalarını davam etdirməkdədir. Bu dəfə o, ictimai rəyin diqqətini yayındırmaq üçün işğal altındakı Azərbaycan ərazilərində referendum keçirəcəyini bəyan edib. Bu, nə məqsədlə ola bilər və bu, növbəti erməni təxribatı ola bilərmi? Söhbət etdiyimiz müsahiblərimiz bu açıqlamaların Paşinyanın növbəti sərsəmləmələrindən olduğunu bildirdilər.***



### Politoloq Qabil Hüseynli: "Ermənistan işğalçılıq və separatizm əməllərinə görə cəzalanmalıdır"

- Ermənilər 100 oyundan çıxırlar və fantaziyalarını və təxəyyüllərini o qədər güclü ediblər ki, ağıllarına gələni danışırlar. Ermənilərin hər bir sözünün həm daxili, həm də xarici ictimai rəyi yönləndirmək məqsədi daşıdığını söyləməklə, bu insanların nə qədər abırsız olduğunu, eyni zamanda, nə qədər beynəlxalq qurumlardan ciddi təzyiqlər görmədiklərini bir daha ortaya qoyur. Bu gün Ermənistan işğalçılıq və separatizm əməllərinə görə cəzalanmalıdır. Çünki Ermənistan işğalçı bir ölkədir. Onsuz da gec-tez, Ermənistan işğal etdiyi torpaqlarımızı işğaldan azad edəcək və bütün hərəkətlərinə görə cəzalanacaqdır. Çünki o torpaqlar Azərbaycanındır.

### Siyasi şərhçi Azər Həsrət: "Ermənistan işğal altındakı Azərbaycan torpaqlarında hansı addım atırsa, bu, qanunsuzdur"

- Ermənistanın Azərbaycan torpaqlarında hər hansı fəaliyyəti qanunsuzdur. Yəni burada seçkidə,



referendum, adını nə istəsələr qoya bilərlər, kənd təsərrüfatı əməliyyatları olsun, bunun fərqi yoxdur. Ermənistan işğal altındakı Azərbaycan torpaqlarında hansı addım atırsa, bu, qanunsuzdur. Ona görə də, bu referendumu elan etmələri, təbii ki, qanunsuzdur. İkinci bir tərəfdən də, bunlar, bununla kimi aldatmaq istəyirlər ki, əgər hansısa bir referendumdan söhbət gedirsə, bəli, Azərbaycanın da bununla bağlı fikri var, mövqeyi var. Azərbaycan vətəndaşları hansılar ki, işğal altındakı torpaqlardan Ermənistanın hücumu nəticəsində qovulublar, öz ev-eşiklərindən. O, adamlar ora qaytarıldıqdan sonra referendum söhbəti etmək olar, indiki halda, nə referendum, hansı referendumdan söhbət gedə bilər? Orada işğalçılar var, işğalçı ölkənin ordusu var və bu işğalçı ölkənin ordusunun nəzarəti altında olan bir torpaqda hansa bir normal referendum keçirmək mümkün deyil. Ona görə də, Ermənistan, sadəcə olaraq, yenə də ictimai rəylə oyun oynayır və cəmiyyəti dünyanı aldatmağa cəhd edir. Amma biz də buna imkan verə bilmərik.

### Politoloq Elşad Mirbəşiroğlu: "Paşinyan anlayır ki, siyasi opponentləri getdikcə güclənməkdədir"

- Ermənistanın baş naziri Paşinyan münaqişə ilə bağlı konkret mövqeyə malik deyil. Yəni dəfələrlə öz mövqeyini kəskin şəkildə dəyişir, ziddiyyətli bəyanatlar səsləndirir. O ki qaldı, Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərində referendum keçirməyi məsələsinə, aydın məsələdir ki, istənilən məqsədlə keçirilən referendumun legitimliyi tanınmayacaqdır. Yəni legitim sayılmayacaqdır. Qondarma rejim dünyanın heç bir ölkəsi tərəfindən tanınmır, separatçı rejim kimi qəbul olunur: "Bunun fonunda, istər orda "prezident seçkiləri" olsun, istər digər təyinatlı seçkilər olsun, onların heç biri dünya tərəfindən tanınmayıb. İndi Paşinyanın bu cür bəyanatları yenə də təxribat xarakterli bəyanatdır, ən azından, Paşinyan daxili adıtoriyanın diqqətini mövcud sosial- iqtisadi problemlərdən yayındırmağa çalışır. Eyni zamanda, Paşinyan anlayır ki, siyasi opponentləri getdikcə güclənməkdədir və bu baxımdan da, yeni bir referendum oyununu ortaya atmaqla, özünə hansısa xal qazanmağa çalışır.

**GÜLYANƏ**

# Zaqatala separatçılarının ermənilərlə iş birliyi

***1997-ci ildə hər iki separatçı Azərbaycan ərazisində "Avar dövləti"nin yaradılması üçün 1 milyon ABŞ dolları və 1000 ədəd avtomat silahın alınması məsələsinin müzakirəsi məqsədi ilə Yerevan və Xankəndiyə səfər etmişlər. Sonradan onlar bu danışıqları Mahaçqalada davam etdirmiş və nəticədə, 1000 ədəd avtomat silahın və 300 min ABŞ dollarının verilməsi barədə razılığa gəlmişlər. Bundan sonra avar separatçılarının "Car-Balakən dövləti"nin yaradılması ideyası və bu istiqamətdə fəaliyyətlərinə dəstək almaq üçün H.Maqomedov 2001-ci ilin dekabrında yenidən Yerevana getmişdir. Bu səfərin əsas məqsədi yaz-yay mövsümündə yerli icra hakimiyyətinin binasının zəbt edilməsi, həbs olunmuş silahdaşlarının azadlığa buraxılması şərti ilə vəzifəli şəxslərin girov götürülməsi və dövlətə qarşı digər cinayət əməlləri üçün müxtəlif növ silah, o cümlədən, istilik raketlərinin alınması idi.***

2001-ci ilin sentyabrında Zaqatala rayonu ərazisində müxtəlif cinayət əməlləri törətməklə əhalini təsir altında saxlamağa, ərazini nəzarətsiz zonaya çevirməyə cəhd göstərən şəxslərin dindirilməsi zamanı məlum olmuşdur ki, onların silah və maddi cəhətdən təchiz edilməsində separatçı-terrorçu qurumun "müdafiə naziri" və digər "rəhbər işçiləri" birbaşa iştirak etməklə, həmin şəxsləri separatçı hərəkətlərə təhrik etmişlər.

1994-cü il iyulun 3-də Bakı metrosunun "28 May" və "Gənclik" stansiyaları arasında 13 nəfərin ölümü, 42 nəfərin yaralanması ilə nəticələnən terror aktı Ermənistan xüsusi xidmət orqanları tərəfindən təşkil edilmişdir. Bu məqsədlə Qarabağ uğrunda gedən döyüşlər zamanı əsir düşmüş Azər Aslanovun anasını aldadıb Yerevana çağırmış, oradan Azərbaycanın işğal olunmuş ərazilərinə apararaq girov saxlayaraq, A.Aslanovu həmin cinayəti törətməyə sövq etmişlər (bu fakt erməni millətçi-separatçı ekstremizminin əsas ideoloqlarından biri, hazırda "İnterpol" xətti ilə axtarışda olan Zori Balayanın "Cəhənnəm və cənnət arasında" kitabında öz əksini tapmışdır). İstintaq və məhkəmə prosesində sübuta yetirilmişdir ki, A.Aslanovun terrorçu kimi hazırlanmasının "ideoloji təminatında" Zori Balayanın və Dağlıq Qarabağ erməni separatçılarının liderı olmuş, hazırda Ermənistan Respublikasının prezidenti Robert Koçaryanın iştirakı olmuşdur.

90-cı illərin əvvəllərindən etibarən beynəlxalq terrorçu qrupların liderlərinin reabilitasiyasına çalışan Ermənistan rəhbərliyi xarici diasporanın radikal təşkilatlarının, xüsusilə, "Daşnaksutyun", ASALA, MAQ, "Erməni birliyi", "Erməni Azadlıq cəbhəsi" və digər terror təşkilatları fəallarının Ermənistan ərazisində toplanması məqsədi ilə genişmiqyaslı kampaniyaya başlamış, onların fəaliyyətlərinə siyasi-hüquqi şərait yaradaraq sığınacaq vermiş, pul, silah, saxta sənəd və nəqliyyatla təchiz etmişdir. Həmçinin, Azərbaycanda ermənilərin sıx yaşadıqları əraziyə yardım adı altında bir sıra xarici dövlətlərdən terrorçular, silah və maliyyə vəsaitləri göndərilir, Türkiyə nümayəndəliklərinə qarşı terror aktları törətmiş ermənilərin azad olunması və dəstəklənməsi Ermənistanda dövlət səviyyəsində təşkil olunurdu. Belə ki, Suriyada doğulmuş, ASALA üzvü, 1983-cü ilin iyun ayında Fransanın Orli aeroportunda partlayış törətdiyinə görə həbs edilmiş Varujan Karapetyanın Ermənistan xüsusi xidmət orqanları tərəfindən Eçmiədzin kilsəsinin imkanları vasitəsi ilə azad olunması üçün imzatoplama kampaniyası keçirilmişdir.

Fransada terror aktları törətdiyinə görə həbs edilmiş ABŞ vətəndaşı, tanınmış beynəlxalq terrorçu Monte Melkonyan azad olduqdan sonra 1990-cı ildə Ermənistandan Dağlıq Qarabağa göndərilərək, azərbaycanlıları öz torpaqlarından məcburi köçkün vəziyyətinə salmış terrorçu qruplara rəhbərlik etmişdir. 1993-cü ilin yayında Azərbaycan qoşun hissələri tərəfindən məhv edilmiş M.Melkonyanın Yerevanda dəfn mərasimində prezident də daxil olmaqla, Ermənistanın dövlət rəsmiləri iştirak etmiş, sonra bu beynəlxalq terrorçu Ermənistanın milli qəhrəmanı elan olunmuş, onun adı ER Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmişdir.

1992-ci ildə Xankəndinə göndərilmiş Vazgen Sislyan, Yaxın Şərq terrorçuları Abu Əli, Qilbert Minasanyan və digər terrorçularla birlikdə zorakılıq siyasətini dünya ictimaiyyətinin diqqətini erməni məsələsinə yönəltmək üçün vasitə kimi istifadə edirdilər.

R.Koçaryan hakimiyyətə gəldikdən sonra Ermənistanda terrorçu qrupların rəhbərlərinin reabilitasiyası halları daha da artmışdır. Tanınmış terrorçu, İran vətəndaşı və "Daşnaksutyun" partiyasının üzvü Qrant Markaryan həbsdən azad edilərək, Azərbaycana qarşı terror aktlarının keçirilməsində fəal iştirakına görə, 1981-ci ildə Parisdə türk səfirliyinin zəbtinin təşkilatçılarından biri Vazgen Sislyanla birgə R.Koçaryan tərəfindən Qarabağ müharibəsinin qəhrəmanı adına layiq görülmüşlər. Bütün bunlar Ermənistan rəhbərliyinin Azərbaycana qarşı terror aktlarının təşkilində, bilavasitə iştirakını bir daha təsdiq edir. Əslində, Ermənistanın keçmiş rəhbərləri: Prezident R.Koçaryan, keçmiş müdafiə naziri S.Sarkisyan və Dağlıq Qarabağdakı işğalçı-separatçı rejimin keçmiş rəhbəri A.Qukasyan terrorçularla sıx əlaqədə olduqlarını gizlətmirlər.

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin "sərhəd"i hazırda Ermənistanın silahlı qüvvələri tərəfindən qorunur, bu ölkədən olan çağırışçılar hərbi xidmət keçmək üçün həmin ərazilərdəki hərbi hissələrə göndərilir. Həmçinin, hazırda işğal olunmuş ərazilərdə Ermənistanın silahlı qüvvələri və terrorçu qruplarla yanaşı, qeyri-qanuni silahlı birləşmələr də fəaliyyət göstərir və bütün bunlar terrorizmə qarşı mübarizə üzrə beynəlxalq Konvensiyaların nəzarətindən kənardadır.

***Fransada terror aktları törətdiyinə görə həbs edilmiş ABŞ vətəndaşı, tanınmış beynəlxalq terrorçu Monte Melkonyan azad olduqdan sonra 1990-cı ildə Ermənistandan Dağlıq Qarabağa göndərilərək, azərbaycanlıları öz torpaqlarından məcburi köçkün vəziyyətinə salmış terrorçu qruplara rəhbərlik etmişdir. 1993-cü ilin yayında Azərbaycan qoşun hissələri tərəfindən məhv edilmiş M.Melkonyanın Yerevanda dəfn mərasimində prezident də daxil olmaqla, Ermənistanın dövlət rəsmiləri iştirak etmiş, sonra bu beynəlxalq terrorçu Ermənistanın milli qəhrəmanı elan olunmuş, onun adı ER Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmişdir.***

III. Narkotik maddələrin qanunsuz becərilməsi və dövriyyəsi

İşğal olunmuş ərazilər heç bir dövlətin və beynəlxalq təşkilatın nəzarətində olmayan özünəməxsus kriminal mənbəyinə çevrilmişdir. Belə ki, separatçı-terrorçu rejim işğal altında olan ərazilərdə narkotik maddələrin qanunsuz becərilməsi, istehsalı və satışının genişlənməsi üçün bütün zəruri şəraiti yaratmışdır. Bu faktlar ABŞ Dövlət Departamentinin narkotik maddələr üzərində beynəlxalq nəzarət strategiyasına dair 2000-ci il mart tarixli hesabatında öz əksini tapmışdır. Narkotik işbazları qondarma qurumun bədnam rəhbərləri müdafiə edir, narkotiklərin satışından əldə olunan pulları işğal olunmuş ərazilərin nəzarətdə saxlanılması və muzdlulara haqq ödənilməsi üçün istifadə edirlər.

ABŞ Dövlət Departamentinin 2001-ci ilin martında açıqlanmış hesabatında işğal edilmiş Azərbaycan ərazilərindən narkotik vasitələrin kütləvi şəkildə daşınması üçün istifadə olunduğu bildirilir və Ermənistana, coğrafi yerinə görə, narkotik vasitələrin beynəlxalq dövriyyəsində potensial subyekt kimi baxılır. Azərbaycanın işğal olunmuş sərhədyanı ərazilərində çətənə kollarının yetişdirilməsi faktı AŞ PA-nın Dağlıq Qarabağ üzrə məruzəsində də öz əksini tapmışdır.

Narkotiklərin satışından əldə olunan pulun böyük hissəsi separatçılar tərəfindən qanunsuz silahlı birləşmələr, terror qrupları üçün silahların alınmasına və təlimlərin keçirilməsinə xərclənir. Dağlıq Qarabağda mövcud olan qanunsuz iqtisadi fəaliyyət separatçıları "çirkli pulların" yuyulması əməliyyatları sahəsində məşhurlaşdırmaqla onları transmilli cinayətkar infrastrukturların maraq dairəsinə daxil etmişdir.

Azərbaycanın işğal olunmuş ərazilərindən nüvə və radioaktiv tullantıların basdırılması məqsədilə də istifadəsi güman olunur. Belə ki, gündəlik, təqribən, 9 milyon KVT/saat enerji hasil edən Metsamor Atom-Elektrik Stansiyasının müvafiq istehsalının müqabilində Ermənistanda hazırkı dövrədək nüvə tullantılarının saxlanılması üçün anbarın olmaması Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin qeyd olunan tullantıların basdırılması məqsədilə istifadəsi ehtimalını artırır.

IV. İnsan ticarəti

Ermənistanın Azərbaycan Respublikasına təcavüzü nəticəsində, əsir düşmüş və girov götürülmüş Azərbaycan vətəndaşlarının beynəlxalq humanitar təşkilatlardan gizlədilərək, işğal olunmuş ərazilərdə saxlanılması və onlara qarşı amansız cəza metodlarının tətbiq edilməsi, bu şəxslərin qeyri-bəşəri məqsədlər üçün istifadə edilmələri barədə mütəmadi məlumatlar daxil olmaqdadır.

Azərbaycana qarşı təcavüzün nəticələrindən və mövcud status-kvodan yararlanmağa çalışan Ermənistanın rəsmi orqanlarının əsir və girov götürülmüş, itkin düşmüş azərbaycanlıları gəlir məqsədi ilə alver predmetinə çevirərək, müxtəlif cinayətkar qruplaşmalarla işbirliyi qurduqları barədə təkzibedilməz faktlar mövcuddur.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 9 noyabr




## YAP Binəqədi və Pirallahı rayon təşkilatları tərəfindən 9 Noyabr Dövlət Bayrağı Günü münasibətilə yürüş keçirilib



Bakının Binəqədi və Pirallahı rayon icra hakimiyyətlərinin dəstəyi, Yeni Azərbaycan Partiyası Binəqədi və Pirallahı rayon təşkilatlarının birgə təşkilatçılığı ilə 9 Noyabr Dövlət Bayrağı Günü münasibətilə Pirallahı rayonunu Abşeron yarımadası ilə birləşdirən körpü üzərində izdihamlı yürüş keçirilib. Yürüşdə YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov, rayon təşkilatlarının əməkdaşları, gənc fəalları və məktəblilər iştirak ediblər. Yürüş zamanı iştirakçılar əllərində Ümummilli Lider Heydər Əliyevin rəsmi, uzunluğu 15, eni 7 metr və digər ölçülərdə olan dövlət bayraqları ilə müxtəlif şüarlar səsləndirərək, dövlət bayrağımıza sevgi və ehtiramlarını bildiriblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 noyabr 2009-cu il tarixli Sərəncamı ilə hər il 9 noyabr tarixi ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd edilir. Dövlət başçısının məlum Sərəncamı dövlət atributlarımızdan olan bayrağımıza dərin məhəbbətin və hörmətin bariz nümunəsi, cəmiyyətimizdə və dünyada yüksək təbliğatına əsaslı zəmindir. İnanırıq ki, bu gün inkişaf edən ölkəmizdə qürurla dalğalanan üçrəngli bayrağımız dövlət başçımız, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə tarixi, əzəli torpağımız olan Dağlıq Qarabağda dalğalanacaq.

***ZÜMRÜD***

## Nərimanov rayonunda Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilib

***Nərimanov rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyasının Nərimanov və Xətai rayon təşkilatlarının gənclər birliyinin birgə təşkilatçılığı ilə 9 Noyabr Dövlət Bayrağı Günü ilə bağlı Qara Qarayev adına 8 saylı Mərkəzi İncəsənət Məktəbində tədbir keçirilib.***



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Daha sonra Dövlət Bayrağı Gününə həsr olunmuş videoçarx nümayiş olunub.



Tədbirdə Milli Məclisin deputatı Hikmət Babaoğlu və YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev çıxış edərək, 1990-cı ildə ölkəmizdə baş verən hadisələrdən, 70 ildən sonra üçrəngli bayrağımızın xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində ucaldılmasından, muxtar respublikanın dövlət bayrağı kimi qəbul olunmasından, Azərbaycan Ali Soveti qarşısında, bununla bağlı vəsatət qaldırılmasından danışıblar.

Qeyd olunub ki, Prezident İlham Əliyev bu mühüm dövlət atributu ilə bağlı müvafiq qərarlar qəbul edib. Belə ki, dövlətimizin başçısının 17 noyabr 2009-cu il tarixli Sərəncamı ilə Dövlət Bayrağı Günü təsis olunub, 2010-cu ilin sentyabrında isə, möhtəşəm Dövlət Bayrağı Meydanı yaradılıb. Üçrəngli bayrağımız bu gün dünyanın 70-ə yaxın ölkəsində Azərbaycanın müxtəlif statuslu diplomatik nümayəndəlikləri üzərində dalğalanır. Beynəlxalq tədbirlərdə, idman arenalarında qaldırılır və bu, hər bir soydaşımızın qəlbini iftixar hissi ilə doldurur. Xalqımızın ən böyük arzusu bayrağımızın Xankəndidə, Şuşada və işğal olmuş digər rayonlarımızda dalğalanmasını görməkdir.

YAP Nərimanov rayon gənclər birliyinin sədr müavini Vüsal Əliyev və YAP Xətai rayon gənclər birliyinin sədri Orxan Bayramov da çıxış edərək, dövlət bayrağının hər bir Azərbaycan vətəndaşının qürur mənbəyi, müstəqil dövlətimizin isə şərəfi, qüdrəti olduğunu və gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasında böyük rol oynadığını qeyd ediblər.

***RƏFİQƏ***

## Nizami rayonunda imzatoplama kampaniyası uğurla başa çatdırılıb



23 dekabr 2019-cu ildə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədlərinin müdafiəsi üçün Nizami rayonunda imzatoplama kampaniyası keçirilib.

Kampaniyadan öncə, imza toplayan fəallara treninq keçirilib. İmza toplamanın qaydaları bir daha izah edilib, müvafiq təlimat və tapşırıqlar verilib.



Yeni Azərbaycan Partiyasının seçki qərargahının Nizami rayon şöbəsinin fəalları rayonda yerləşən 24 saylı Nizami I, 25 saylı Nizami II və 18 saylı Nərimanov-Nizami seçki dairələri - Nizami və Keşlə bələdiyyələri üzrə namizədlikləri irəli sürülmüş 34 nəfər üçün, müvafiq olaraq, tələb olunan sayda imza toplayıblar.

Yüksək aktivlik şəraitində baş tutan prosesdə Yeni Azərbaycan Partiyasının seçki qərargahının Nizami rayon şöbəsinin 30-a yaxın fəalı iştirak edib. Hər bir fəal imza vərəqəsini doldurmaq üçün dairə hüdudları üzrə sakinlərlə görüşüb, eyni zamanda, rayon təşkilatının qərargahında da imza yığıblar. Yeni Azərbaycan Partiyasının seçki qərargahının Nizami rayon şöbəsinin sədri Sədaqət Vəliyeva imzatoplama kampaniyası ilə əlaqədar bildirib ki, seçicilər kütləvi şəkildə Yeni Azərbaycan Partiyasının namizədlərinin müdafiəsi üçün imzalarını verərkən, dövlətimizin başçısının siyasətini dəstəklədiklərini və seçkilərdə onlara səs verəcəklərini də deyiblər.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**